# Bakıda məktəbli bıçaqlanıb

## Şagird əməliyyat olunub, vəziyyəti ağır-stabildir



**Bakı şəhəri 162 nömrəli tam orta məktəbin 11a sinif şagirdi (müvafiq səbəblərə görə şagirdin adı qeyd olunmur) yanvarın 10-da günorta saatlarında məktəbdən kənar ərazidə bıçaqlanıb.**

APA-nın məktəbdəki mənbəyə istinadla məlumatına görə, hadisə dərsdən sonra baş verib.

Şagirdin sinif yoldaşı tərəfindən bıçaqlandığı hüquq-mühafizə orqanları tərəfindən aşkarlanıb. Şagird hazırda xəstəxanadadır, əməliyyat olunub, vəziyyəti ağır-stabildir.

Sinif yoldaşını bıçaqlamaqda təqsirli bilinən şagird (müvafiq səbəblərə görə şagirdin adı qeyd olunmur) hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb.

# Azad edilən ərazilərdə daha 12 mina aşkarlanıb



**Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı təqdim edib.**

ANAMA-dan "Şərq"ə verilən məlumata görə, yanvarın 5-dən 8-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 6, tank əleyhinə 6 mina və 68 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

*Nəticədə 57,1 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.*


№ 4 (5526), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 yanvar 2022-ci il (çərşənbə axşamı)




# Sayları açıqlanıb

## Azərbaycanda 12 nəfər "Omikron"a yoluxub

**Azərbaycanda "Omikron"a yoluxanların sayı açıqlanıb.** Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında bildirilib ki, 12 nəfərdə SARS-CoV-2 21K ("Omikron") variantı aşkarlanıb.

Onlar xarici ölkələrdən Azərbaycana gələn şəxslərdir.

"Aparılan tədqiqatların nəticələri bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli variantlarından qorunmağın ən effektiv yolu vaksinasiyadır. Əhalinin vaksinasiyada aktiv iştirakı nəticəsində Azərbaycanda epidemioloji vəziyyətin sabit qalmasına nail olunub", - birgə məlumatda qeyd olunub.



# Sərdar Kılıç ermənilərlə danışıqlara hazırdır

## Hulusi Akar Türkiyənin Ermənistan üzrə xüsusi nümayəndəsi ilə görüşüb

**Türkiyə milli müdafiə naziri Hulusi Akar rəsmi Ankaranın Ermənistan ilə danışıqlar üzrə xüsusi nümayəndəsi Sərdar Kılıçla görüşüb.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

*Qeyd edək ki, Türkiyə və Ermənistan münasibətlərin normallaşdırılması üçün qarşılıqlı şəkildə xüsusi nümayəndə təyin ediblər. Xüsusi nümayəndələr arasında ilk görüş yanvarın 14-də Rusiyanın paytaxtı Moskva şəhərində baş tutacaq.*

# Dəqiq vaxt açıqlanacaq

## Bakı-Tbilisi qatarının hərəkəti bərpa oluna bilər



**Gürcüstan Azərbaycanla dəmir yolu vasitəsilə sərnişin daşımalarının bərpası istiqamətində danışıqları davam etdirir.**

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə "Gürcüstan Dəmir Yolları" SC-nin Baş direktoru David Peradze "Forbes" jurnalına müsahibəsində bildirib.

O deyib ki, Bakı və Tbilisi arasında qatar reyslərinin bərpasının dəqiq vaxtı daha sonra açıqlanacaq.

Gürcüstan və Azərbaycan paytaxtları arasında sərnişin qatarlarının hərəkəti koronavirus pandemiyası səbəbindən 2020-ci ilin martın 14-dən dayandırılıb. 2021-ci ildə Gürcüstan dəmir yolu ilə sərnişin daşımalarını yalnız Ermənistan istiqamətində bərpa edib.

# Ermənistan razılıq verib

## Türkiyənin "Pegasus Airlines" şirkəti İstanbul-İrəvan-İstanbul reysləri yerinə yetirəcək




**Ermənistanın Mülki Aviasiya Komitəsi Türkiyənin "Pegasus Airlines" aviaşirkətinə İstanbul-İrəvan-İstanbul marşrutu üzrə uçuşların həyata keçirilməsinə razılıq verib.**

Trend bu barədə erməni KİV-lərir istinadən xəbər verir.

Bundan əvvəl analoji icazəni 2015-ci ildən sonra Türkiyəyə uçuşlar həyata keçirəcək ilk Ermənistan aviaşirkəti olacaq Ermənistanın "Flyone" şirkəti də alıb.

*Xatırladaq ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bir müddət əvvəl Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı ilk görüşün Moskvada keçiriləcəyini bildirmişdi. Ankara tərəfindən xüsusi nümayəndə Türkiyənin ABŞ-dakı keçmiş səfiri Serdar Kılıç, İrəvandan isə parlament sədrinin müavini Ruben Rubinyan təyin edilib. Bundan əlavə, Çavuşoğlu bildirmişdir ki, Türkiyə Cənubi Qafqazla bağlı bütün qərarları qardaş Azərbaycanla birlikdə verir.*



# Ermənistan tərəfinin yaydığı məlumatlar növbəti təxribatdır

## Ordumuz Qırmızı Bazarda mülki əhalini və obyektləri atəşə tutmayıb

**"Azərbaycan Ordusunun bölmələri tərəfindən Qırmızı Bazar istiqamətində guya atəş açılması və nəticədə avtomobilin yanması barədə erməni sosial şəbəkə istifadəçilərinin yaydıqları məlumat yalandır".**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib. Məlumata görə, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə atəş açılmayıb. Azərbaycan Ordusu mülki əhalini və obyektləri atəşə tutmayıb: "Hazırda bu istiqamətdə sakitlikdir. Qarşı tərəfin bu kimi növbəti təxribat xarakterli məlumatının heç bir real əsası yoxdur".

# SSRİ-nin bərpası nağıldır

## Müstəqil dövlətlərin milli direnişi 100 il öncəsindən daha güclüdür

**ABŞ dövlət katibi Entoni Blinken deyib ki, Rusiya geosiyasi planda sovet ittifaqı dövründə mövcud olan nizamın yenidən bərpasına nail olmaq istəyir. Onun sözlərinə görə, bu məqam Rusiya Prezidenti Vladimir Putinin əsas hədəflərindən biridir:**

"Bu, SSRİ-nin bir hissəsi olmuş ölkələr üzərində təsir dairəsini bərpa etmək deməkdir və qəbuledilməzdir". Rusiyanın Qazaxıstana qoşun yeritməsinin ardınca Prezident Putinin "SSRİ-ni bərpa" planları yenidən müzakirə mövzusuna çevrilib. Bəzi təhlilçilərə görə, "SSRİ-ni bərpa" əməliyyatının Kreml üçün bumeranq effekti olacaq.



(səh.3)

# Koronavirusun bitməsinə az qaldı

## ÜST: Amma qarşıdakı 3 ay ağır keçəcək



**Koronavirus pandemiyasının bitmə tarixi görünür, amma qarşıdakı 3 ay ağır keçəcək.**

APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının xüsusi elçisi Devid Nabarro açıqlama verib.

Nabarro pandemiyanın bitmə tarixinin uzaqda olmadığını söyləsə də, virusun təkamül etdiyini, yeni ştamların yaranmaqda davam edəcəyini vurğulayıb.

*ÜST rəsmisi yeni ştamlara görə, hər 3-4 aydan bir yoluxmada artım hallarının ola biləcəyini də istisna etməyib.*

# Bakıda 16, Gəncədə 14 yaşlı yeniyetmə itkin düşüb




**Bakı və Gəncədə yeniyetmələr itkin düşüb.**

APA-nın məlumatına görə, yanvarın 7-də paytaxtın Binəqədi rayonu ərazisində 2006-cı il təvəllüdlü Məbud Hüseynov yaşadığı evdən çıxıb və geri qayıtmayıb. Bununla bağlı Binəqədi rayon Polis İdarəsinin 7-ci Polis Bölməsində araşdırma başlanılıb.

Bundan başqa, Gəncə şəhəri Nizami rayonu ərazisində 2008-ci il təvəllüdlü Tuncay Quliyev oynamaq adı ilə yanvarın 3-də evdən çıxıb və geri qayıtmayıb.



# "Mən tam tərsini düşünürəm"

## Sülhəddin Əkbər: "Rusiya Qazaxıstana qoşun yeritməklə öz mövqeyini gücləndirmədi, əksinə zəiflətdi"

(səh.4)

# Azərbaycan-Ermənistan münasibətləri müzakirə olunub

## Türkiyə və ABŞ rəsmiləri qarşılıqlı münasibətlərdən, eləcə də qlobal proseslərdən danışıblar



(səh.2)

# Prezident Əlcəzairin və Koreyanın yeni səfirlərinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsini qəbul edib.**

Səfir Abdelouahab Osman etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edərək beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyev iqtisadi sahədə əlaqələrə toxunaraq bu müstəvidə də fəaliyyətin intensivləşdirilməsinin və ticarət dövriyyəsinin artırılması imkanlarının araşdırılmasının zəruriliyini bildirib. Dövlət başçısı həmçinin insanlar arasında fəal təmasların təşviqinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini qeyd edib. Prezident İlham Əliyev Abdelouahab Osmanın səfirliyi dövründə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə həmişə beynəlxalq hüququn aliliyini və Qoşulmama Hərəkatının təməlini təşkil edən Bandunq prinsiplərini rəhbər tutmuşdur.

Prezident İlham Əliyev 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərinin işğal altında qalmasına və Ermənistanın bu ərazilərdə törətdiyi dağıntılara, Azərbaycanın mədəni irsinə qarşı vandalizm əməllərinə toxunaraq regional əməkdaşlığı nəzərdə tutan postmünaqişə dövrünə aid sülh gündəliyinin həyata keçirildiyini bildirib.

Səfir Abdelouahab Osman Əlcəzair Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlət başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Əlcəzair dövlətinin başçısına çatdırmağı xahiş edib.

Abdelouahab Osman Əlcəzairin BMT Nizamnaməsinin prinsipləri və məqsədlərinə, o cümlədən ölkələrin milli suverenliyinə, ərazi bütövlüyünə hörmət etməyə və daxili işlərə müdaxilə etməməyə tam sadiq olduğunu qeyd etdi. Səfir ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Səfir Abdelouahab Osman Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirdiyini vurğulayıb.

Prezident İlham Əliyev dünən həmçinin Koreya Respublikasının Azərbaycana yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Li In-Yonqun etimadnaməsini qəbul edib.

Səfir Li İn-Yonq etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Prezident İlham Əliyev iki ölkə arasında əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu bildirərək, müstəqillik illərində münasibətlərimizin çox uğurla inkişaf etdiyini vurğulayıb. Dövlət başçısı Azərbaycanla Koreya Respublikası arasında uzun illər müxtəlif sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirib, siyasi əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. Bu baxımdan Koreyanın yüksək səviyyəli rəsmilərinin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafına töhfə verdiyini bildirib. Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığa toxunaraq, Koreyanın bir çox şirkətinin ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən infrasktrur və inşaat layihələrində uğurla iştirak etdiklərini vurğulayıb. Dövlət başçısı birgə investisiya sahələrinin, ixrac-idxal əməliyyatlarının artırılmasının, insanlar arasında təmasların genişlənmədirilməsinin əhəmiyyətinə toxunub. Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Səfir Li İn-Yonq son 30 il ərzində Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığın və insanlar arasında əlaqələrin ölkələrimizin potensialına uyğun olaraq daha da möhkəmləndirilməsinin vacibliyini bildirib və səfir fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcini qeyd edib.

Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində Koreya şirkətlərinin mümkün iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.

## Prezident Sahib Ələkbərovu "Şöhrət" ordeni ilə təltif edib



**Sahib Nurəddin oğlu Ələkbərov "Şöhrət" ordeni ilə təltif edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, Sahib Ələkbərov Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif olunub.

## 2030 nəfər hərbçi, 250 texnika...

### KTMT-nin Qazaxıstandakı qüvvələrinin sayı açıqlanıb



**Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayev KTMT-nin Qazaxıstan ərazisindəki qüvvələrinin sayını açıqlayıb.**

"Şərq" "RİA novosti"yə istinadən xəbər verir ki, Tokayev bunu KTMT Kollektiv Təhlükəsizlik Şurasının növbədənkənar sessiyası zamanı deyib.

"Bu gün Qazaxıstan Respublikasında Kollektiv Təhlükəsizlik Şurasının qərarına əsasən, KTMT-nin 2030 nəfərdən ibarət kollektiv sülhməramlı qüvvələri və 250 texnikası yerləşdirilib. Qarşıya qoyulmuş vəzifələrin icrasına başlanılıb", - deyə prezident qeyd edib.

**Xanlar ƏLİBƏY**

## Qırğızıstan Qazaxıstana daha bir nota verib

### Rəsmi Bişkek vətəndaşlarının dərhal azad olunmasını tələb edib

**Qırğızıstan Qazaxıstana daha bir nota verib.**

APA-nın xəbərinə görə, bu barədə Qırğızıstan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Nota Qazaxıstandakı hadisələrlə bağlı 5 Qırğızıstan vətəndaşının saxlanılmasına görə verilib.

Rəsmi Bişkek vətəndaşlarının dərhal azad olunmasını tələb edib.

*Xatırladaq ki, dünən Qırğızıstan vətəndaşı, musiqiçi Vikram Ruzaxunovun saxlanılması faktı ilə bağlı da ölkə XİN-i Qazaxıstana nota vermişdi.*

## Daha 329 nəfər koronavirusa yoluxub

### 12 nəfər vəfat edib, 358 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 329 yeni yoluxma faktı qeydə alınıb, 358 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib.




İndiyədək ölkədə ümumilikdə 621 563 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 605 919 nəfər müalicə olunaraq sağalıb, 8 457 nəfər vəfat edib, aktiv xəstə sayı 7 187 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 247, ötən müddət ərzində isə ümumilikdə 5 948 270 test aparılıb.*



# Azərbaycan-Ermənistan münasibətləri müzakirə olunub

### Türkiyə və ABŞ rəsmiləri qarşılıqlı münasibətlərdən, eləcə də qlobal proseslərdən danışıblar

**Türkiyə Prezidentinin müşaviri İbrahim Kalınla ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Jake Sullivan arasında telefon danışığı olub.**

Müzakirədə Ermənistanla Türkiyə arasında normallaşma prosesinin, eləcə də Ermənistan-Azərbaycan münasibətlərində davamlı sülhün təmin edilməsinin bölgədəki sabitliyə və rifaha göstərəcəyi təsir imkanları dəyərləndirilib.

Dövlət rəsmiləri qlobal və regional məsələləri, eləcə də Ukrayna böhranı, Qazaxıstandakı iğtişaşlar, Əfqanıstandakı vəziyyət və digər mühüm məsələlər ətrafında müzakirələr aparıblar.

Tərəflər, həmçinin Türkiyə ilə ABŞ arasında razılaşdırılmış ortaq strateji mexanizmin detalları və mövzularını da müzakirə ediliblər.

Türkiyənin Balkanlar, Qafqaz bölgəsi, Yaxın Şərq, Orta Asiya və Afrikada sülh və sabitliyin qorunmasında qərarlı olduğu diqqətə çatdırılıb. Eyni zamanda, Qazaxıstandakı hadisələrin dərhal sakitləşməsinin bölgədə sabitlik və rahatlığın təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb, Türk Dövlətləri Təşkilatının bu məsələdəki səyləri yüksək qiymətləndirilib.

Ukrayna böhranının danışıqlar və əməkdaşlıq yolu ilə həllinin vacibliyi və Türkiyənin bu məsələdə hərtərəfli kömək göstərməyə hazır olduğu ifadə edilib. Türkiyənin Ukraynanın ərazi bütövlüyünün qorunmasına əhəmiyyət verdiyi qeyd olunub.

# TRT-1-in Azərbaycanda yerüstü yayımı niyə dayandırılıb?

**Azərbaycan Respublikası ərazisində TRT-1 televiziya proqramının yerüstü yayımının dayandırılması barədə "Türkiye Radyo-Televizyon Kurumu Genel Müdürlüğü"nün Bakı Bürosu tərəfindən "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyinə ("Teleradio" İB) 13 avqust 2021-ci il tarixində müvafiq məktub daxil olub.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyindən məlumat verilib.

Qeyd olunub ki, sözügedən məktubda TRT-1 televiziya proqramının Azərbaycan Respublikası ərazisində kabel televiziya şəbəkələri və internet üzərindən yayımının kifayət hesab olunduğu vurğulanıb. Bu baxımdan, yerüstü yayım üçün əlavə maliyyə vəsaitinin ayrılmasının məqsədəuyğun hesab olunmadığı və TRT-1 televiziya proqramının yerüstü yayımının 2022-ci ildən etibarən dayandırılması xahiş edilib.

*Qeyd olunan əsasla və Milli Televiziya və Radio Şurasının razılığı ilə 5 yanvar 2022-ci il tarixindən etibarən "Teleradio" İB tərəfindən Azərbaycan Respublikası ərazisində TRT-1 televiziya proqramının yerüstü yayımı dayandırılıb.*

# Paşinyan KTMT-nin toplantısında sərsəmlədi

### Qazaxıstandakı olaylar və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müdaxiləsi İrəvanı həvəsləndirib

**İsmayıl Qocayev**



**Dünən Qazaxıstanın təşəbbüsü ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Şurasının videoformatda növbədənkənar sessiyası keçirilib. Rusiya prezidenti Putin bildirib ki, Qazaxıstan dövlətçiliyi təhlükə ilə üzləşmişdi. Onun sözlərinə görə, Qazaxıstanda iğtişaşlar zamanı "maydan texnologiyasından" istifadə edilib.**

Putin deyib ki, yanvarın əvvəlindən başlanan hadisələr xaricdən müdaxilə ilə bağlı nə ilk, nə də son cəhddir: "Qazaxıstandakı situasiya hamıya aiddir. Bu hucum təcavüz aktıdır. Buna təxirə salınmadan reaksiya vermək lazım idi. KTMT-nin ordusu nə qədər lazımdır, o qədər Qazaxıstanda qalacaq. Hamıya aydındır ki, Qazaxıstandakı təhlükə yanacaq qiymətinin bahalaşmasına görə olan kütləvi aksiya deyil". Putin KTMT sülhməramlılarının Qazaxıstandan çıxarılacağını, lakin nə qədər lazım olacaqsa, o qədər ölkədə qalacaqlarını əlavə edib: "Öz funksiyasını yerinə yetirəndən sonra bütün KTMT kontingenti Qazaxıstan ərazisindən çıxarılacaq. Əminəm ki, ən qısa zamanda Qazaxıstanda vəziyyət stabilləşəcək. Qazaxıstandakı hadisələr kənar müdaxilələrin nə ilk, nə də son nümunəsidir. Amma biz evimizdə vəziyyəti dəyişməyi, rəngli inqilab senarilərinin reallaşdırılmasına imkan verməyəcəyimizi göstərdik".

Belarus Prezidenti Aleksandr Lukaşenko isə bildirib ki, KTMT-ni gücləndirmək lazımdır. Çünki təşkilata üzv ölkələri ciddi çağırışlar gözləyir: "Onun bütün komponentlərini, ilk növbədə sülhməramlı potensialı sakitcə və sistemli şəkildə möhkəmləndirmək lazımdır. Mobilliyi və operativ hərəkəti qoruyub saxlamaq vacibdir. Qərbə, Amerikaya və ya hansısa başqa dövlətlərə baxaraq, bu məsələdə çox utancaq olmaq lazım deyil". Ermənistanın Baş naziri Nikol Paşinyan isə yaranmış fürsətdən istifadə edərək Qazaxıstandakı son olaylarla İkinci Qarabağ müharibəsi arasında bu cür paralel aparıb: "Qazaxıstanda olduğu kimi Dağlıq Qarabağda 44 günlük müharibədə kənardan terrorçular gətirilmişdi. Biz beynəlxalq terrorçularla üz-üzə qalmışdıq. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv dövlətləri yeni təhlükələrlə üz-üzə qala bilər".

**Ədalət Partiyasının sədr müavini, Elxan Şükürlü bəyan edib ki, Qazaxıstandakı hadisələrin mahiyyəti barədə ilk gündən üzərində durduğu versiya - iğtişaşların Qərbyönümlü qüvvələrin bu ölkədə hakimiyyəti ələ keçirmək üçün təşkil etdiyi çevriliş cəhdi olması artıq tam şəkildə təsdiqini tapmaqdadır.** E.Şükürlü KTMT-nin iclasında Rusiya Prezidenti Vladimir Putinin açıq şəkildə Qərbi hədəf almasına diqqət çəkib: "Putin deyib ki, "Qazaxıstanda "Maydan" texnologiyalarından istifadə edilib. Bildirib ki, "bu ölkəyə hücum təcavüz aktıdır. Buna dərhal reaksiya vermək lazım idi. Biz Qazaxıstanda beynəlxalq terrorçuluğun aqressiyasını müşahidə edirik. Döyüşçülər xüsusi təlimdən keçmişdilər. Biz göstərdik ki, öz evimizdə vəziyyəti dəyişməyə, rəngli inqilablar gerçəkləşdirməyə imkan verməyəcəyik". Beləliklə, indi bu "rəngli inqilab"ın - çevriliş cəhdinin hansı siyasi fiqurun hakimiyyətə gətirilməsi üzərində qurulduğunun aydınlaşdırılması qalır. Çox böyük ehtimalla, Qərbin çevrilişlə gətirmək istədiyi əsas siyasi fiqur kimi, son hadisələrdə "vətənə xəyanət" ittihamı ilə həbs edilən Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin rəhbəri Kərim Məsimovun adı üzərində dayanılacaq.

Xatırladaq ki, mənşəcə uyğur olan, 6 xarici dil bilən Kərim Məsimov əvvəllər Nazarbayevin köməkçisi, iki dəfə Qazaxıstanın baş naziri olub. Prezident Administrasiyasına, 2016-cı ildənsə Milli Təhlükəsizlik Komitəsinə başçılıq edib. İqtisad elmləri doktoru və general-mayordur. Qazaxıstandakı əsas döyüş idman növlərini - "Muay-tay" və "Tay-boks" idman federasiyalarını inkişaf etdirən əsas şəxs sayılır. Uzun müddət Qərb dairələrində ona Nazarbayevin siyasi varisi kimi baxılıb. ABŞ-da demokratların hakimiyyəti dövründə - 2015-ci ildə dövlət katibi Kerri, respublikaçıların dövründə isə 2019-cu ildə Pompeo ilə görüşləri olub. Görünür ki, Qərb təsadüfən uyğur mənşəli Kərim Məsimovun adı üzərində durmayıb. Rusiya-Çin sərhədində yerləşən Qazaxıstanda uyğur mənşəli şəxsin prezident olması ABŞ-a təkcə KTMT və Avrasiya İttifaqını dağıtmaqda, Rusiya-Türkiyə münasibətlərini pozmaqda yox, həm də Çinə qarşı əsas silahını - uyğurları ayağa qaldırmaqda çox böyük üstünlüklər vermiş olardı".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə iclasda Ermənistan Baş naziri Nikol Paşinyanın ifadələrinə diqqət çəkib. Onun sözlərinə görə, Paşinyan Rusiyaya və onun dostlarına Azərbaycanı hədəf göstərib:** "Sanki demək istəyib ki, "Ermənistan beynəlxalq terrorçularla üzləşəndə Siz bizə dəstək vermədiniz, qoşunlarınızı göndərmədiniz, Qazaxıstana isə dərhal reaksiya verdiniz, gələn dəfə bizim çağırışı da eşidin". Əlbəttə, Paşinyanın növbəti sayaqlamasına fikir verməmək də olardı. Azərbaycan öz ərazisini azad etmək uğrunda savaşırdı, ordumuz üzərinə düşən etdi. Paşinyan isə yenə "beynəlxalq terrorçular" haqqında nağıl danışmağa çalışıb. Buna baxmayaraq, Qazaxıstandakı olaylar və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müdaxiləsi İrəvanı həvəsləndirib. Diqqətli olmalıyıq. İrəvan Azərbaycanla sərhəddə, o cümlədən Qarabağ separatçılarının əli ilə gərginliyi artırıb Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət üçün bəhanə axtara bilər. Fikrimcə, Paşinyanın bugünkü sərsəmləməsinə rəsmi Bakı münasibət bildirməlidir ki, Ermənistanın dostları çaşıb təxribata uymasınlar".

# Qazaxıstanda daha dəhşətli hadisələr yaşana bilərdi

## Türk Dövlətləri Təşkilatı təmkinli və ehtiyatlı addım atmaqla doğru davrandı



İsmayıl Qocayev

**Türk Dövlətləri Təşkilatının Qazaxıstana dair fövqəladə iclasının gündəliyi açıqlanıb. Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilib ki, təşkilata sədrlik edən Türkiyənin təşəbbüsü ilə keçiriləcək iclasda TDT-yə üzv və müşahidəçi ölkələrin XİN başçıları iştirak edəcək. İclas yanvarın 11-də videokonfrans formatında keçiriləcək və Qazaxıstanda baş verən hadisələr müzakirə olunacaq.**

İclasa Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu sədrlik edəcək. Məlumat üçün bildirək ki, Türkiyə başda olmaqla digər türk respublikalarının Qazaxıstanda baş vermiş hadisələrə nisbətən gec mövqe bildirməsi birmənalı qarşılanmayıb. Bir sıra ekspertlər Türk Dövlətləri Təşkilatının Qazaxıstandakı proseslərdə daha aktiv rol oynamasını tələb ediblər. Lakin əksəriyyət hesab edir ki, Türk Dövlətləri Təşkilatının üzv dövlətləri arasında münasibətlər yüksək səviyyədə olsa da, onların hər hansı ortaq hərbi birliyi olmadığı üçün proseslərdə hərbi dəstək göstərə bilmirlər. Təşkilata üzv dövlətlər Qazaxıstana sadəcə mənəvi dəstək göstərə, humanitar köməklərini təklif edə bilərlər.

**Türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə açıqlamasında bildirib ki, Türk Dövləti Təşkilatının güclü üzvlərindən biri olan Qazaxıstanda yaşanan hadisələr təkcə qazaxlar deyil, bütöv türk dünyasında ciddi narahatlıq yaratdı.** Alimin sözlərinə görə, Qazaxıstan türk birliyinin meydana çıxmasında və inkişafında önəmli rol oynamış bir ölkədir: "Türk Dövlətləri Təşkilatının meydana çıxmasında Türkiyə və Azərbaycan qədər Qazaxıstan da istəkli olub. Eyni zamanda birliyin formalaşmasında əməli işlərə imza atıb. Eksprezident Nursultan Nazarbayevin bu məsələdə oynadığı rol danılmazdır. Təşkilatın adının "türkdilli" deyil, "Türk Dövlətləri" adlandırılması da Nursultan Nazarbayevin təşəbbüsü idi. Türkiyə və Azərbaycandan sonra Qazaxıstanda türklük ruhunun güclənməsi ən çox Rusiyanı narahat edirdi. Əlbəttə, bu məqam Çini, ABŞ-ı da düşündürürdü. Lakin sirr deyil ki, ən çox rahatsız olan məhz Moskva idi. Nazarbayev öz postunu Tokayevə verdikdən sonra Tokayev ətrafında rusiyapərəst dairə yaranmağa başlamışdı. Qazaxıstanın son illərdə tədricən Rusiyadan uzaqlaşması, türk birliyinə istiqamətləndiyi göz önündə idi. Prosesləri yaxından izləyən Moskva Qazaxıstanda pozucu qüvvələri ələ almağa, ölkədəki rusyönlü qazaxlardan istifadə etməyə çalışırdı. Elə bundan istifadə edərək Qazaxıstanda qarışıqlıq yaratmağa nail oldu. Düşünürəm ki, Türk Dövlətləri Təşkilatı Qazaxıstan məsələsində təmkinli və ehtiyatlı addım atmaqla doğru davrandı. Əslində indiki halda təşkilat nə mümkün idisə, onu etdi. Türkiyə dövlətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Xarici işlər naziri Mövlud Çavuşoğlunun da açıqlamaları göstərir ki, hadisələrin qızğın dövründə Qazaxıstan rəhbərliyi ilə birbaşa əlaqə saxlamaq mümkün olmayıb".

*Ekspertin fikrincə, Tokayevin hadisələr zamanı üzünü Türk Dövlətləri Təşkilatına deyil, KTMT-yə çevirməsi təsadüfi deyildi:* "Tokayev üzünü ilk anda TDT-yə çevirsəydi, problem daha da dərinləşərdi. Problemin kökündə Rusiyanın dayandığı Tokayevə də bəlli idi. Nəzərə alaq ki, TDT yeni təşkilatlanır. Həm də qarşıdurmalar təşkilatın ən önəmli ölkəsindən birində - Qazaxıstanda baş verirdi. Bütün bunlar onu göstərir ki, işin arxasında duran Rusiyadır. Nazarbayevin bugünədək kölgədə saxlanması, onun adından hansısa bəyanatlar verilməsi də Moskva ilə bağlı idi. Kreml aşkarda və gizlində Qazaxıstanı təhdid edirdi. Çünki Türk Dövlətləri Təşkilatı KTMT-yə alternativ olaraq ortaya çıxırdı. Bu baxımdan Türkiyə başda olmaqla digər türk ölkələrinin məsələyə soyuqqanlı yanaşması normaldır".

**F.Ələkbərliyə görə, Tokayev şəxsən özü müraciət etmədiyi üçün TDT-yə üzv ölkələrin heç biri Qazaxıstana hərbi müdaxilə edə bilməzdi:** "Qazaxıstan və Qırğızıstan türk birliyi ilə yanaşı, həm də KTMT-nin üzvləridir. Belə məqamda burada əsas iki dövlət - Türkiyə və Rusiya diqqət mərkəzində olur. Tokayevin Türkiyəyə hansısa formada müraciəti Kremli daha da qıcıqlandıracaqdı. Bu isə Qazaxıstanın başqa faciələr yaşamasına gətirib çıxara bilərdi. Hətta heç bir müdaxilə olmadığı halda belə rus mediası Türk Dövlətləri Təşkilatını hədəf alırlar. Lakin Qazaxıstandakı hadisələr bizi geri deyil, irəli addım atmağa, daha sıx təşkilatlanmağa və güclənməyə vadar edir. Digər türk dövlətləri də Türkiyə və Azərbaycanı örnək alaraq Şuşa Bəyannaməsinə bənzər hərbi müqavilələr imzalamalıdır. Çalışmalıyıq ki, Türkiyənin hərbi bazaları bütün türk respublikalarında mövcud olsun. Bu halda təxribatlara və xarici müdaxilələrə qarşı effektli mübarizə aparmaq mümkün olar".



# SSRİ-nin bərpası nağıldır

## Müstəqil dövlətlərin milli dirənişi 100 il öncəsindən daha güclüdür

İsmayıl Qocayev

**ABŞ dövlət katibi Entoni Blinken deyib ki, Rusiya geosiyasi planda sovet ittifaqı dövründə mövcud olan nizamın yenidən bərpasına nail olmaq istəyir. Onun sözlərinə görə, bu məqam Rusiya Prezidenti Vladimir Putinin əsas hədəflərindən biridir:**

"Bu, SSRİ-nin bir hissəsi olmuş ölkələr üzərində təsir dairəsini bərpa etmək deməkdir və qəbuledilməzdir". Rusiyanın Qazaxıstana qoşun yeritməsinin ardınca Prezident Putinin "SSRİ-ni bərpa" planları yenidən müzakirə mövzusuna çevrilib. Bəzi təhlilçilərə görə, "SSRİ-ni bərpa" əməliyyatının Kreml üçün bumeranq effekti olacaq. Çünki müxtəlif ölkələrdə Rusiyanın ağalığını qəbul etmək istəyən qruplar olsa da, onlar milli qüvvələrlə üz-üzə qalacaqlar. Ukrayna, Qazaxıstan, Gürcüstan və Azərbaycandakı milli qüvvələr qətiyyən Rusiyanın vassalı olmaq niyyətində deyillər. Kreml Rusiya imperiyasının yeni libasda zühuruna çalışırsa, qonşu dövlətlərdəki milli qüvvələrin müqavimətini də hesaba qatmaq məcburiyyətindədir.

> "Putin narazılıqların sosial-iqtisadi məzmununu ənənəvi "velikorus" şovinizminə yönləndirməyə çalışır"

**Rusiya rəhbərliyinin SSRİ sevdasına düşməsi ilə bağlı "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, hər hansı formada Rusiyadan asılı bir ittifaqın qurulması xülyadır.** Partiya təmsilçisinin fikrincə, "SSRİ" nağılı Putinin öz hakimiyyətini qoruması üçün ortaya atdığı utopiyadır: "Putin narazılıqların sosial-iqtisadi məzmununu ənənəvi "velikorus" şovinizminə yönləndirməyə çalışır. Lakin bu gün Rusiyanın daxili problemlərini çözməkdə çətinlik çəkən bir hakimiyyətin hansısa birləşmə modeli ilə problemlərin öhdəsindən gələcəyi inandırıcı deyil. Müstəqilliyin dadını duymuş xalqlar 100 il öncəsindən daha böyük dirənişlə bu cür cəhdlərin qarşısına çıxacaqlar. Hər bir halda müqavimət duyğularımızı canlı tutmamız olduqca vacibdir. Azərbaycanın müstəqilliyini kimlərinsə iştahasına qurban verəcək addımların atılması yolverilməzdir. Sabiq SSRİ respublikaları, o cümlədən Qazaxıstan da daxil olmaqla bütün türk dövlətləri iqtisadi baxımdan müstəqilliklərini təmin edə biliblər. Onların bu xüsusda Rusiyaya heç ehtiyacları yoxdur. Bununla yanaşı, saxta sovet ideologiyasının yeri ortaq dil və mədəniyyət amilinə söykənən türk milli düşüncəsi ilə dolub. Əgər həm çar, həm də sovet Rusiyası türklərin genetik yaddaşından milli kimliklərinin izini silə bilməyibsə, bunu feodal-oliqarxiya Rusiyası heç vaxt bacarmayacaq".

# "Müstəqil türk dövlətlərində millətləşmə prosesi zəif gedir"

## Nəsib Nəsibli: "Millətlə dövlət bütünləşməsinin ən böyük düşməni Rusiyadır"



**"Qazaxıstandakı gəlişmələr mövzusunda gözəl təhlillər aparılır. Bir də bu yöndən, millət-dövlət nəzəriyyəsindən məsələyə baxaq".**

Bu sözləri Türkiyədə yaşayan tarixçi-alim, professor, sabiq millət vəkili Nəsib Nəsibli deyib. Alim bildirib ki, keçmiş sovet məkanındakı avtoritar rejimlər keçmiş nomenklaturanın birbaşa davamıdır: "Hakimiyyəti üçün təhlükə yarandıqda onu bəsləyən gücə (Rusiyaya) can atırlar. Demək ki, avtoritar rejimlər başqa sözlə taladıqları ölkələrin milli güvənlik problemidir. Müstəqil türk dövlətlərində millətləşmə prosesi lazımi surətdə və dərinlikdə getmir. Millətlə dövlət bütünləşməsinə hələ çox var. Bu bütünləşmənin ən böyük düşməni Rusiyadır. Türkçü, Turançı siyasət yürüdən bir lider talançı, hətta özünəvurğun manyak ola bilər. Bu cür adamlara görə milli hədəflərimizdən imtina edəsi deyilik ki?! Qazaxıstan məhz vurğuladığım bu naqisliyin bədəlini ödəməkdədir. Amma Qazax hürr, ipə-sapa yatmayan deməkdir. Gəlin, son 30 ildə toplanan enerjinin lap yaxında xaricə vuracağına ümid edək".

**İsmayıl**

# Azərbaycan Ordusunda güclü nəzarət var

## "Ümumiyyətlə, hərbi hissələrdə smartfon tipli telefonların istifadəsinə qadağa qoyulub"



**İsveçrə Silahlı Qüvvələri ABŞ xüsusi xidmət orqanlarının telefon danışıqlarının dinlənilməsi təhlükəsinə görə hərbi qulluqçulara "WhatsApp", "Telegram", "Signal" və digər xarici mesajlaşma proqramlarından istifadə etməyi qadağan edib.**

Bu barədə ötən ilin dekabr ayında ordunun ən yüksək komandanlığına məktub göndərilib.

Məktubda bunun əvəzinə İsveçrədə hazırlanmış "Threema" messencerindən istifadə tövsiyə olunub.

Qeyd edək ki, İsveçrə Silahlı Qüvvələrinin mətbuat xidmətinin məlumatında bildirilib ki, əvvəlcə ümumiyyətlə başqa mesajlaşma xidmətlərindən istifadəyə icazə verilməyəcəyi deyilsə də, sonradan yerli proqram tövsiyə olunub.

Azərbaycanda, xüsusən də müharibə dövründə sosial şəbəkələrdə gizli qalmalı olan məlumatların paylaşıldığının şahidi olurduq. Bir çox dövlət qurumları da bu barədə paylaşımların edilməməsi ilə bağlı həm hərbçilərə, həm də vətəndaşlara dəfələrlə çağırışlar etmişdi. Bəs Azərbaycan Ordusunda bu qaydalar necə tənzimlənir?

**Məsələ ilə bağlı "Şərq"ə danışan hərbi ekspert Şair Ramaldanov bildirib ki, bizdə nəinki hər hansı proqramlar, ümumiyyətlə, smartfon işlətməyə belə icazə yoxdur:** "Azərbaycanda bu proqramları dəstəkləyən smartfon tipli hətta video çəkə bilən, hər hansı üsulla ötürə bilən telefonlar da qadağan olunub. Sadəcə sadə, zəng üçün istifadə oluna biləcək telefonlara icazə verilir. Bu, müdafiə nazirinin əmridir. Buna görə ümumiyyətlə silahlı qüvvələrə əlavə hər hansı qadağa qoymağa ehtiyac yoxdur.

Əgər sosial mediada bu cür paylaşımlar olursa, paylaşan şəxs müdafiə nazirinin əmrini pozmuş kimi qəbul olunur. Dəfələrlə bu məsələyə görə müddətdən artıq xidmət edənlər ordudan xaric olunublar. Əgər müddətli əsgərlərdirsə, onlar nizamnamədə qeyd edilmiş qaydalara əsasən cəzalandırılırlar. Bu artıq komandirin öz cəza vermə imkanlarından istifadə edərək verdiyi qərardır.

Ancaq Azərbaycan Ordusunda buna güclü nəzarət var. Ancaq Azərbaycan Ordusunda və ya digər güc strukturlarında smartfon tipli telefonlar qadağan olunub. Bu məsələnin nəzarət mexanizmi digər əmrlərdə olduğu kimidir. Ümumiyyətlə, silahlı qüvvələrdə andiçmədə komandirin əmrini sözsüz, dəqiq yerinə yetirmək fikri var. Buna görə də burada ən başda nəzarət funksiyasını hərbçi özü yerinə yetirməlidir".

**Sənan İsmayıl**

# Saxta profillərin qarşısını almaq çox çətindir

## İncə detalları nəzərə almaqla sosial media ilə bağlı qanun qəbul olunmalıdır

Çimnaz ŞAHLAR



**Son zamanlar bəzi sosial şəbəkə platformalarında Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) adından istifadə etməklə yaradılmış bir sıra saxta səhifə və profillərin fəaliyyəti müşahidə edilməkdədir. Belə halların mövcudluğu bir çox istifadəçilərin bu hesabları rəsmi mənbə kimi qəbul etməsinə səbəb olur və nəticədə həmin sosial şəbəkə resurslarında yerləşdirilən materialların DTX tərəfindən yayımlanması kimi başa düşülür.**

Bununla bağlı DTX xəbərdarlıq yayıb. Qeyd edilib ki, DTX-nin rəsmi internet saytı olan "https://www.dtx.gov.az/az/" və "Facebook", "Twitter", "Instagram", "YouTube" sosial şəbəkələrində müvafiq olaraq "https://www.facebook.com/DTXAzerbaijan", "https://twitter.com/DTX_Azerbaijan", "https://www.instagram.com/azerbaijandtx/","https://www.youtube.com/c/DTXofficialchannel/" səhifə və kanalları fəaliyyət göstərir və DTX-yə aid məlumatlar yalnız bu mənbələrdə yerləşdirilir.

"Həmçinin xüsusi vurğulayırıq ki, DTX-nin sosial şəbəkələrdəki rəsmi səhifələri "Facebook", "Twitter", "Instagram" və "YouTube" administrasiyaları tərəfindən verilmiş və bu resursların rəsmiliyini təsdiq edən qeydiyyat nişanına sahibdir.

Bununla yanaşı bildiririk ki, sosial şəbəkələrdə DTX-nin rəhbərliyinə məxsus hər hansı profil və ya hesab mövcud deyil.

Vətəndaşlarımızın və KİV nümayəndələrinin diqqətinə çatdırırıq ki, DTX-nin fəaliyyəti barədə məlumatlar yalnız yuxarıda qeyd olunan DTX-nin rəsmi internet resurslarından əldə olunmalıdır", - məlumatda qeyd edilib.

**Mövzu ilə bağlı "Şərq"ə danışan internet-media eksperti Səbuhi Abbasov bildirib ki, hər bir halda sosial şəbəkədə saxta profillərin yaradılması birmənalı şəkildə qınanmalıdır və müəyyən mənada ictimai və hüquqi məsuliyyət yaratmalıdır:** "Saxta profillərin yaranması bütün dünyada baş verir. Bəzi insanlar bundan kibercinayət məqsədi ilə istifadə edir. Bəzi insanlar isə sadəcə olaraq səhifələrini populyarlaşdırmaq, müəyyən izləyici auditoriyası toplamaq, daha sonra səhifələrin adını dəyişərək başqa məqsədlərlə istifadə etmək üçün yaradır. Təəssüflər olsun ki, bununla bağlı konkret olaraq qanun-cəza mexanizmi olmadığına görə, burada çox ciddi boşluqlar var. Bu boşluqlardan bütün dünya əziyyət çəkir".

**Ekspert qeyd edib ki, DTX-nin rəsmi açıqlaması kifayət qədər ciddi hüquqi məsuliyyət yaradır:** "Burada məsələ paylaşılan xəbərin düzgün, yanlış və yaxud qeyri-dəqiq olmasında deyil. Məsələ bir saxta hesabın rəsmi qurumun adından məlumat paylaşmasından gedir. Düşünürəm ki, bütün orqanlar mütəmadi olaraq, sosial şəbəkə hesablarını izləməlidir. Əgər belə faktlar aşkarlanarsa, bununla bağlı ictimaiyyətə geniş şəkildə məlumat verilməlidir. Bu məlumatda, eyni zamanda, hüquqi məsuliyyətin elementləri də göstərilməlidir. Bunun üçün demək olar ki, bütün qurumlarda aidiyyəti şəxslər və vəzifələr var. Belə olmadığı təqdirdə, təbii ki, bir çox vətəndaşlar bilərəkdən, bəziləri bilmədən bu yola əl atırlar".

S.Abbasov hesab edir ki, baş verən bütün bu prosesləri - saxta profillərin, qrupların və səhifələrin yaradılmasını aradan qaldırmaq üçün addımlar atılmalıdır: "Burada söhbət təkcə feysbukdan getmir, bura instaqram, TikTok, tvitter və s. daxildir. Bilirsiniz ki, "Media haqqında" qanun artıq qəbul olundu. Hesab edirəm ki, bu, Azərbaycan mediasının inkişafına təsir göstərəcək. Sosial şəbəkələr də medianın bir ailəsidir. Mütəxəssislər hətta bunu "sosial media" adlandırır. İnsanlar fərdi şəkildə istəmədən belə, artıq sosial medianın tərkib hissəsinə-subyektinə çevrilib. Buna görə də düşünürəm ki, sosial media ilə bağlı qismən tənzimləyici qanun qəbul olunmalıdır. Təbii, o qədər incə detallar öz əksini tapmalıdır ki, dünya miqyasında bu, sosial media azadlığının məhdudlaşdırılması kimi görülməsin. Daha çox sosial mediada vətəndaş məsuliyyətinin artırılmasına hesablansın. Mən elə zənn edirəm ki, belə bir qanunun qəbul edilməsi, birmənalı şəkildə saxta profillərin qarşısını almış olacaq. Ancaq Dövlət Təhlükəsizlik Xidməti, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi və bu kimi qurumların adından saxta profil açan şəxslər müəyyənləşərsə, hər hansısa formada, ya inzibati, ya mülki məsuliyyətə cəlb olunmalıdır. Bunu nümunə kimi cəmiyyətə göstərmək lazımdır ki, digər insanlar da bu addımı atmazdan öncə dərindən fikirləşsinlər. Çünki bunlar strateji və dövlətin təhlükəsizliyi ilə bağlı qurumlardır. Bu qurumların adına saxta profil açılırsa və bunun qarşısı alınmırsa, bu, cəmiyyətdə başqa cür qəbul edilə bilər".

# "Mən tam tərsini düşünürəm"



## Sülhəddin Əkbər: "Rusiya Qazaxıstana qoşun yeritməklə öz mövqeyini gücləndirmədi, əksinə zəiflətdi"

**Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev iğtişaşlarda ölənlərin xatirəsinə yanvarın 10-nu ümummilli matəm günü elan edib. KTMT iclasında çıxış edən Tokayev bildirib ki, bir sıra mənbələr Qazaxıstanda hakimiyyətin dinc asayişçilərlə mübarizə apardığını iddia edirlər. Onun fikrincə, bu, tamamilə dezinformasiyadır: "Biz heç bir zaman silahlı qüvvələrimizi dinc nümayişçilərə qarşı istifadə etməmişik və etməyəcəyik.**

Bunu bilən Qazaxıstana hücum edən təşkilatçılar bir neçə aqressiya dalğası təşkil etdilər. Dediyim kimi əvvəl dinc etirazlar baş verdi. Sonra isə xüsusilə də Almatıda siyasi mitinqlər keçirildi. Daha sonra isə şəhərə üç istiqamətdən silahlı dəstələr hərəkət etməyə başladı. BMT Nizamnaməsi hər bir dövlətin xaricdən silahlı hücum zamanı individual və ya kollektiv müdafiəsi hüququnu tanıyır. Yaxın vaxtlarda ilkin araşdırma başa çatandan sonra biz dünya ictimaiyyətinə Qazaxıstana qarşı terror hücumu hazırlanması ilə bağlı əlavə sübutlar təqdim edəcəyik". Tokayev BMT, ATƏT, Şanxay Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq təşkilatların iğtişaşlar zamanı törədilən cinayətlərin araşdırılmasında maraqlı olduqlarına inandığını deyib. Qazaxıstanın ən böyük böhranını yaşadığını söyləyən Tokayev qeyd edib ki, terrorçuların əsl hədəfi konstitusiya düzənini dağıtmaq, hakimiyyəti ələ keçirmək və dövlət çevrilişi etmək idi: "Onların əsas hücumu Almatıya qarşı yönəlmişdi, şəhərin süqutu cənubun, daha sonra isə bütün Qazaxıstanın ələ keçirilməsinə yol açacaqdı".

"Qazaxıstandakı, ilk növbədə Özbəkistandakı vəziyyətdən dərs çıxarmaq lazımdır". Belarus Prezidenti Aleksandr Lukaşenko da deyib ki, iğtişaşlarda iştirak edənlərin əsas hissəsini peşəkar "terrorçular" təşkil edirdi: "KTMT sülhməramlılarının yeridilməsi Qazaxıstandakı münaqişə təşkilatçılarının planlarını pozdu. Sülhməramlıların terrorçular tərəfindən ələ keçirilməsinə imkan verməməliyik. Çünki onlar öz istəyi ilə gəlməyiblər. Dostları, qardaşları zəng vurub". Rusiya Prezidenti Vladimir Putin isə Qazaxıstanda "Maydan hərəkatının" planlaşdırıldığını, amma vaxtında qarşısının alındığını bildirib.

*Rusiya və müttəfiqlərinin Qazaxıstandakı hadisələrə baxışını "Şərq"ə analiz edən Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər deyib ki, baş verən olaylardan sonra Rusiya başda olmaqla digər postsovet ölkələrindəki bütün avtoritar rejimlərin yuxusu ərşə çəkilib...*

**- Sülhəddin bəy, Putin, Tokayev və Lukaşenko Qazaxıstanda baş verənləri eyni cür dəyərləndirir, kənar müdaxilədən, "terrorçulardan" danışırlar. Olaylarda dolayı yolla Qərbin suçlanması nə qədər məntiqlidir?**

- Moskva MDB ölkələrində "rəngli inqilabların" qarşısını almaq metodlarını işləyir. Bunun üçün də postsovet ölkələrinə təlimatlar göndərir. Xüsusi xidmət orqanlarının kanalları ilə operativ əlaqəni davamlı olaraq saxlayırlar. Bütün avtoritar rejimlər və onların başında duran Rusiya xalqların meydanlara çıxmasına, hakimiyyətlərin demokratik seçki tələbləri ilə dəyişdirilməsinə prinsipcə qarşıdırlar. Ona görə də hamısı bunun üçün səfərbər olunub. Belə etirazlar yubanmadan, dərhal demokratiya işartıları kimi nəzərə alınır və elə rüşeym halındaca məhv edilir. Bu, birmənalı şəkildə Kremlin və digər əksər postsovet dövlətlərinin rejimlərinin demokratiyaya baxışıdır. "Rəngli inqilab" ifadəsi avtoritarların başındakı tükü biz-biz edir.

**- Qazaxıstanda baş verən etirazlar birmənalı rejimə qarşı yönəlmişdi və demokratiya tələbindən irəli gəlirdi deyə bilərikmi?**

- Qazaxıstanda yaranmış vəziyyət tam aydınlaşmayıb. Proseslərlə bağlı məlumatlar dəqiq deyil. Ona görə də hadisə barədə konkret nəsə söyləmək erkəndir. Bir neçə gündən sonra Qazaxıstanda gerçəkdə nələrin baş verdiyi haqda daha dəqiq fikir söyləmək olar. İlkin fikir, rəy odur ki, Qazaxıstanda etiraz hərəkatı iki yerə ayrılmalıdır. Birincisi, Qazaxıstanın qərbində başlayan və dinc tələblərin irəli sürülməsi ilə davam edən aksiyalardır. İkincisi isə, Almatıdakı etirazların geniş miqyas alaraq bütün ölkə ərazisinə yayılmasından sonra rejimin və onların arxasında duran Rusiyanın məqsədyönlü şəkildə cəmiyyətdə provokativ addımlara əl atmasıdır. Sonradan meydana çıxan təxribatçı davranışlar etiraz aksiyasını gözdən salmağa, dinc əhalinin gözünü qorxutmağa hesablanmışdı. Ən başlıcası isə xarici müdaxilənin "legitimləşdirilməsi" ilə KTMT-nin Qazaxıstana girişinə imkan yaratmaq qarşıya məqsəd qoyulmuşdu.

> "Necə ki, 20 Yanvardan sonra Azərbaycanda xalq hərəkatı, milli azadlıq hərəkatı geniş vüsət aldı, bundan sonra Qazaxıstandakı proseslər anti-Rusiya xarakteri alacaq"

**- Tokayev müdaxiləni "qanuniləşdirmək" üçünmü xarici "terror təhlükəsini" ortaya atdı?**

- KTMT-nin, daha doğrusu, Rusiyanın Qazaxıstana hərbi müdaxiləsinin əsaslandırılması üçün "beynəlxalq terror təhdidindən" danışmaq vacib idi. Guya ölkəyə Qərbdən, yaxud başqa yerdən xarici müdaxilə olduğuna görə, KTMT nizamnaməsinin 4-cü bəndi tətbiq olunub. Üstəlik, Qazaxıstan prezidentinin də müraciəti əsas götürülüb. Bu "legitimliyi" haqlı olaraq şübhə altına alanlar Qazaxıstan prezidentinin belə bir səlahiyyətinin olmadığını deyirlər. Çünki bunun üçün, yəni xarici qoşunların ölkəyə daxil olması üçün parlamentin təsdiqi mütləqdir. Amma Tokayev rejimi və arxasında duran Rusiya heç nəyə məhəl qoymadan bu cür addımlar atırlar. 20 Yanvarı görmüş Azərbaycan xalqı üçün Qazaxıstandakı mənzərə kifayət qədər aydındır.

**- Türk Dövlətləri Təşkilatının ən önəmli üzvü - Qazaxıstan itirildimi? Rusiya öz məqsədinə çatdımı?**

- Çoxları düşünür ki, Rusiya Qazaxıstana qoşun yeritməklə öz mövqeyini gücləndirdi. Mən tam tərsini düşünürəm. Əksinə, Rusiya bu addımı ilə Qazaxıstan xalqını itirdi. Necə ki, 20 Yanvardan sonra Azərbaycanda xalq hərəkatı, milli azadlıq hərəkatı geniş vüsət aldı, bundan sonra Qazaxıstandakı proseslər anti-Rusiya xarakteri alacaq. Qazaxıstanda da həqiqi milli azadlıq və demokratik hərəkatın formalaşmasını müşahidə edəcəyik.

**İsmayıl Qocayev**

---

**"Şəxsi informasiyaların ictimaiyyətə açıqlanması mədəniyyətsizlikdir". Bu sözləri "Şərq"ə açıqlamasında təhsil eksperti Kamran Əsədov bildirdi. Ekspert Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil haqqını ödəyə bilməyən tələbələrin adlarının yayılması hadisəsinə münasibət bildirərkən qeyd edib ki, bütün hallarda bu, yolverilməzdir:**



# Ali məktəb ali davranış göstərməyib

## Təhsil haqqını ödəyə bilməyən tələbələrin adlarının yayılması mədəniyyətsizlikdir

**Məlahət Rzayeva**

- Universitet rəsmilərinin hansı izahı, hansı açıqlaması verməsindən asılı olmayaraq şəxsi informasiyaların yayılması istənilən halda mədəniyyətsizlikdir. Mən gözləyirdim ki, universitet rəhbərliyi baş vermş hadisəyə görə üzrxahlıq edəcək. Amma təəssüf! Müxtəlif izahlar verildi, səbəblər göstərildi. Bunların heç biri tələbə haqqında şəxsi informasiyanın yayılmasına haqq qazandırmır. Ödənişli təhsil, təhsil haqları ilə bağlı hər hansı müqavilə şərtləri ola bilər. Bunlar məlumdur. Ola bilsin, müqavilə şərtlərində şəxsi informasiyanın yayılıb-yayılmamasına dair heç bir bənd yoxdur. Lakin bu, ölkə qanunvericiliyinin pozulmasına əsas vermir. Şəxsi toxunulmazlıq, məlumatların əldə edilməsinə dair konkret qanun mövcuddur. Heç kəsin şəxsi məlumatları yayıla bilməz. Təhsil haqqı məsələsi ali məktəblərin dekanlıq və mühasibatlığı və tələbə arasında ola məsələdir. Mühasibatlıq dekanlığa bu barədə məlumat verməlidir ki, təhsil haqlarının ödənməsində vəziyyət necədir. Lakin dekanlıq heç bir halda bu məlumatları yaymamalıdır. Ali təhsil ocağı nəzərə almalıydı ki, internet resursları üzərindən məlumat paylaşmaq həmin məlumatı böyük bir kütlə üçün əlçatan edir. Bir universitet tələbənin şəxsi məlumatlarını qoruya bilmirsə, daha o, nə universitetdir?! Deyirlər ki, təhsil haqqını ödəyə bilməyən tələbələrə qarşı humanist davranılır. Elədikləri yaxşılığın ardınca da informasiya yayıb yaxşılığı heçə endirirlər. Əlbəttə, bu, sızdırılmış məlumatdır və belə hal qətiyyən baş verməməliydi. İndiki zamanda tələbəni təhsil haqqını ödəməyə məcbur etmək etik deyil. Hamımız bilirik ki, pandemiya insanların gəlirlərini azaldıb. Bunu nəzərə almaq lazımdır. Guya ki, hansı təhsil ocağımız aldığı haqq müqabilində təhsil verir? Təəssüf ki, biz yenə də ali məktəb rəhbərliyi tərəfindən ali davranış görmədik. Yalnız bəraətə, özlərinə haqq qazandırmağa çalışdılar.

> "İndiki zamanda tələbəni təhsil haqqını ödəməyə məcbur etmək etik deyil. Hamımız bilirik ki, pandemiya insanların gəlirlərini azaldıb. Bunu nəzərə almaq lazımdır"

*Qeyd edək ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bir illik təhsil haqqını ödəyə bilməyən tələbələrin adlarının yazıldığı siyahının universitet divarından asılması haqqında məlumat yayılmışdı.* Məsələ sosial şəbəkədə geniş təpki doğurduqdan sonra ADMİU-dan açıqlama verildi ki, tütorlar tərəfindən dekanlıq daxili üçün hazırlanmış sənəd imtahan öncəsi tələbələri məlumatlandırmaq məqsədilə "Whatsapp" qrupuna göndərilib. Təhsil haqqını ödəyə bilməyən tələbələrin adlarını yayan şəxslər universitet tərəfindən cəzalandırılıb. Bu barədə universitetin mətbuat katibi Şəhanə Müşviq məlumat verib. O qeyd edib ki, universitetdə tələbələrin adlarının siyahısı asılmayıb: "Tyütorlar tərəfindən dekanlıq daxili üçün hazırlanmış sənəd imtahan öncəsi tələbələri məlumatlandırmaq məqsədilə "Whatsapp" qrupuna göndərilib. Universitet rəhbərliyi bunun da əleyhinədir və elə məsələ açılan kimi operativ şəkildə araşdırıldı, sənədin yayılmasına səbəbkar olan tütor və dekan cəzalandırıldı. Haqlarında təqdimat yazıldı və töhmətlə cəzalandırıldılar"- məlumatda qeyd edilib". Bundan əvvəlki açıqlamasında bildirmişdi ki, bakalavr təhsil pilləsində bütün ödənişli ixtisaslar üzrə illik təhsil haqqı 1800 manatdır. Universitetə ödənişli əsaslarla qəbul olan tələbələrlə bağlanmış fərdi müqavilənin "Ödəniş qaydaları" bölməsinə əsasən, onlar ödəmənin qaydalarıyla tanış olur və müvafiq imzaya şərtləri qəbul etdiklərini təsdiqləyirlər. Bununla belə, ADMİU rəhbərliyi təhsil haqqına görə dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, heç bir tələbəni universitetdən xaric etmir, humanist yanaşaraq onlara təhsil haqqını ödəməsi üçün müəyyən edilmiş zamandan daha uzun müddət vaxt verir. "Sözügedən siyahıya nəzər saldıqda görmək olar ki, həmin siyahıda 3600 AZN, 3500 AZN, 3352 AZN kimi böyük məbləğlər var. Bu da təhsilinin III və ya IV ilində olan tələbənin 2 (iki) təhsil ilinin haqqını ödəmədiyi halda, kursdan-kursa keçirilməsində universitet rəhbərliyi tərəfindən bir problem yaradılmadığının sübutudur. Bu şəxslərin arasında xüsusi imtiyazlı tələbələr yoxdur. Sosial şəbəkələrdə ADMİU ilə bağlı yazılmış iddialar əsassızdır. Bildiririk ki, görüntüləri yayımlanmış siyahı universitetdə nümayiş etdirilməyib. Universitet rəhbərliyinin təhsil haqqını ödəməyən tələbələrin siyahısının nümayişiylə bağlı heç bir tələbi olmayıb. Bu siyahı semestr imtahanları öncəsi sadəcə bir fakültənin dekanlıq daxilində tyütorlar və mühasibatlıq üçün məlumat xarakterli hazırlanmış siyahısıdır. Daxili sənədin şəklinin çəkilərək yayılması təəssüf doğurur", - açıqlamada deyilir.

---




**Azərbaycanda koronavirusdan 16 jurnalist həyatını itirib**

## Azərbaycanda koronavirusdan 16 jurnalist həyatını itirib

### Yazarlar daha ehtiyatlı olmalı, qaydalara əməl etməlidirlər

**Sücayət Mehti**

**2020-ci ilin martından bəri 94 ölkədə koronavirus infeksiyası nəticəsində ən azı 1940 jurnalist dünyasını dəyişib.**

**Qeyri-hökumət təşkilatı olan "Press Emblem Campaign (PEC)"in cümə günü Cenevrədə yaydığı hesabatda bildirilib ki, ən çox ölüm faktı Braziliyada (295) qeydə alınıb:**

"Daha sonra Hindistan (279), Peru (199), Meksika (122), Kolumbiya (79), Banqladeş (68), ABŞ (67), İtaliya (61), Venesuela (59), Ekvador (51), Rusiya (42), Argentina (46), İran (34) ardıcıllığı davam etdirir. 2021-ci ildə 1400 ölüm faktı qeydə alınıb, 50-dən çox jurnalistin isə ölüm səbəbi araşdırılır".

Azərbaycanda isə 2020 və 2021-ci illərdə koronavirusa yoluxan jurnalistlərin ümumi sayı 405 nəfərə çatıb. 2020-ci ildə bu göstərici 117, 2021-ci ildə 288 olub.

Bu barədə Jurnalistlərin Həmkarlar İttifaqının illik hesabatında məlumat verilib.

2020 və 2021-ci illərdə COVID-19-a yoluxma səbəbindən həyatını itirən jurnalistlərin ümumi sayı 16 nəfərə çatıb.

**Mövcud durumu şərh edən Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında bildirib ki, koronavirusla bağlı riskli olan peşələr var:** "Bəzi peşə sahibləri var ki, onlar daim ictimaiyyətlə ünsiyyətdə olur. Bu baxımdan jurnalist həmin qruplara daxildir. Jurnalistlərin işi birbaşa cəmiyyət arasında işləməkdir. Belə olduğu halda təbii olaraq risklər də artır. Dünyada bəzi sahələr var ki, ələhiddə statistik hesablama aparılır. Məsələn, hər bir ölkə üzrə dünyada ümumi yoluxma sayı, ölənlərin sayı bəlli olur. Amma məsələn, tibb işçiləri, jurnalistlər və risk qrupuna daxil olan digər iş sahəsindəkilərin ələhiddə statistikası çıxarılır. Bildiyimiz kimi, Azərbaycan Mətbuat Şurası jurnalistlər üçün növbədənkənar peyvəndləmə işi apararılması üçün TƏBİB-ə müraciət edib. 800-dən çox jurnalist növbəsiz peyvəndlənib.

**M.Ələsgərli bunu da əlavə edib ki, jurnalistlərin iş zamanı ehtiyatlı davranmaları, qaydalara daha ciddi yanaşmaları arzuolunandır:**

"Həm də ki, hadisə yerinə gedəndə, reportajlar hazırlayanda, müsahiblərlə görüşəndə məsafə saxlamaq, tibbi maskalardan istifadə kimi müəyyən qaydalara əməl etsələr, yaxşı olar".

---

# Vəzirov vətən xaini deyil

## Dünyasını dəyişənə rəhmət düşür





**Azərbaycan SSR Kommunist Partiyasının birinci katibi olmuş Əbdürrəhman Vəzirov 91 yaşında Moskvada dünyasını dəyişib. Vəzirov uzun illərdir ki, Rusiya paytaxtında yaşayırdı. 1930-cu ildə Bakıda anadan olmuş Ə.Vəzirov 1988-ci ilin mayında Azərbaycana rəhbərlik etməyə başlayıb.**

### Pənah Hüseyn: "O, konkret 1990-cı il yanvar hadisələri zamanı rəhbərlikdə de-fakto iştirak etmirdi"

Onun rəhbərliyi 1990-cı ilin qanlı yanvar hadisələrinə qədər davam edib. 90-cı ilin yanvarında sovet qoşunlarının Bakıya yeridilməsindən sonra Vəzirov Moskvaya qaçıb. İllərdir fəaliyyəti ciddi müzakirə predmeti olan, barəsində fərqli fikirlər, çoxsaylı irad və ittihamlar səsləndirilən Vəzirovun adı Qazaxıstana Rusiya desant qoşunlarının yeridilməsi kontekstində yenidən gündəmə gəlməyə başlamışdı. Qanlı 20 Yanvar hadisələrini xatırladanlar Vəzirovu rus qoşunlarını Qazaxıstana çağıran Qasım-Jomart Tokayevlə müqayisə edirdi. Məlumat üçün bildirək ki, Əbdürrəhman Vəzirov əslən şuşalıdır. Qarabağın son xanının baş veziri Mirzə Camal Cavanşir Qarabağinin nəslindəndir. Soyadının Vəzirov olması da buradan qaynaqlanır. Ana tərəfdən babası Düdükçü kəndində böyük mülkədar olub və öz torpaqlarında İrandan köçürülən ermənilərin məskunlaşmasına və yaşamasına şərait yaradıb. Lakin sonradan ermənilər silahlanaraq kənddən bütün azərbaycanlıları qovduqları üçün Vəzirovun babası Füzulidə məskunlaşmalı olub.

1985-ci ildə Qorbaçov Əbdürrəhman Vəzirova Azərbaycana rəhbərlik etməyi təklif etmişdi. Vəzirov o vaxt bu təklifdən imtina etsə də, 1988-ci ildə ikinci təklifə "hə" deyib. 1990-cı il yanvarın 20-dək Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi olub. Onun dövründə Moskvanın dəstəyi ilə Qarabağda ermənilərin separatçı hərəkatı alovlanıb, azərbaycanlıların doğma torpaqlarından qovulmasına başlanılıb. Vəzirov sovet qoşunlarının 1990-cı il yanvar ayının 20-də Azərbaycana daxil olmasının və yüzlərlə günahsız insanın qanını axıtmasının qarşısını ala bilməyib. Rus qoşunlarının gəlməsindən 2 gün öncə, 18 yanvarda istefa verərək Moskvaya qaçıb və ömrünün sonuna kimi Rusiyanın paytaxtında yaşayıb. Vəfat xəbəri ilə Vəzirov yenidən sosial şəbəkələrin müzakirə mövzusuna çevrilib. Cəmiyyətdə birmənalı qarşılanmayan Vəzirov əksəriyyət tərəfindən "vətən xaini" kimi təqdim olunub.

**Əbdürrəhman Vəzirov barədə səslənən fikirlərlə bağlı "Şərq"ə danışan sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirib ki, Vəzirovun adı nə Xalq Cəbhəsi, nə Heydər Əliyev, nə də Prezident İlham Əliyev dövründə "vətən xaini" şəklində hallanmayıb.** Keçmiş baş nazir vurğulayıb ki, Vəzirovun 1980-ci illərin sonundan, yəni Azərbaycan rəhbərlik etməyə başladıqdan sonra ilkin fəaliyyətində Qarabağ məsələsində SSRİ-nin imkanlarından istifadə edilməsi baxımından müəyyən əsaslar gətirilə bilərdi. Amma 1990-cı illərin əvvəllərində Vəzirovun rolu birmənalı şəkildə qəbul olunmur: "Əslində hamımız bilirik ki, Əbdürrəhman Vəzirov faktiki olaraq 1989-cı illərin sonu, 1990-cı illərin əvvəlində real hakimiyyətdən uzaqlaşdırılmışdı. O, konkret 1990-cı il yanvar hadisələri zamanı rəhbərlikdə de-fakto iştirak etmirdi. Lakin təəssüf doğuran hal odur ki, o zamanki prosesləri birbaşa iştirakçılarından sayılan Vəzirovun xalqımızın tarixində, yaddaşında faciəli iz buraxmış 20 yanvar hadisələri haqda, ümumən o dövr barəsində milli mənafeyimizə uyğun hansısa fikirlərini eşitmədik. Həmçinin, həmin hadisələrlə bağlı yazılarını da rast gəlmədik. Ancaq artıq Vəzirov dünyasını dəyişib, ölənə isə rəhmət düşür".

**İsmayıl Qocayev**

# Dünya bölüşdürülür?

## Qərb Moskvanın şərtlərinə qarşı çıxacaq



**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Cenevrədə keçirilən NATO-Rusiya danışıqları regionumuza da təsirsiz ötüşməyəcək. Analitikə görə, MDB məkanında öz təsirini artırmaq istəyən Moskva NATO-nun bu regionla siyasi-hərbi əməkdaşlığına qarşıdır:** "Cenevrə danışıqları Putin üçün yeni fürsətlər açır və Rusiyanın beynəlxalq aktor rolunu ortaya qoyur. Danışıqlarda Kreml Ukrayna, Gürcüstan və Qazaxıstan, xüsusilə Mərkəzi Asiya regionunda Qərbin hər hansı hərəkətlilik etməməsini tələb edəcək. Həmçinin, MDB məkanının Rusiyanın protektoru olduğunu qəbul etdirməyə çalışacaq. Şərqi Avropada hərbi alyansın hərbi fəaliyyətinə son qoyulmasını istəyəcək. Ümumiyyətlə isə bu cür danışıqlar Putin üçün uğurlu gedişdir. Kreml Qazaxıstan məsələsindən sonra dünyanın bölüşdürülməsində maraqlıdır. Ancaq NATO-Rusiya danışıqlarının uğursuz olacağı gözlənilir. Çünki Qərb Moskvanın şərtlərinə qarşı çıxacaq".

**Ekspert vurğulayıb ki, Putinin hazırkı siyasəti Cənubi Qafqazın təhlükəsizliyini təhdid edir:** "Azərbaycan təhdidlərə qarşı yalnız Türkiyə ilə hərbi əməkdaşlıq çərçivəsində öz təhlükəsizliyini təmin edə bilər. Türkiyə NATO ölkəsidir və Ankaranın bölgədəki siyasəti hərbi alyansın geosiyasi maraqlarına cavab verir. Rusiya çalışacaq ki, Ermənistan-Türkiyə sərhədləri açılmasın, həm də Azərbaycanla Ermənistan arasında böhran davam etsin. Rusiyanın siyasətinə qarşı Türkiyənin praktik addımlar atması vacibdir".

### *NATO-Rusiya danışıqlarının uğursuz olacağı bəllidir*

**NATO baş katibi Yens Stoltenberq deyib ki, hərbi alyans müharibənin baş verməməsi üçün Rusiya ilə dialoqa ümid edir. Onun sözlərinə görə, Ukraynaya qarşı istənilən aqressiyanın ən ağır iqtisadi və siyasi bədəli olacaq.**

Rusiyanın Ukrayna ətrafında hərbi birləşmələrinin və texnikasının toplandığını bildirən Stoltenberq qeyd edib ki, bir neçə gün öncə NATO XİN başçılarının görüşündə müttəfiqləri Rusiyanı eskalasiyadan çəkinməyə və hərbi birləşmələrini Ukrayna sərhədlərindən geri çəkməyə çağırıb. Yaxın günlərdə Rusiya-NATO Şurasının iclasının keçiriləcəyini xatırladan baş katib bunu müsbət siqnal kimi qiymətləndirdiyini deyib: "Biz Rusiyanın narahatlıqlarına qulaq asacağıq, lakin mənalı dialoq üçün Rusiya da bizim narahatlıqlarımızı dinləməli və anlamalıdır. Şuranın iclasında da bu ifadə olunacaq". Baş katib münaqişələrin həllinin siyasi yolunun olduğuna əmin olmaq üçün dialoqun vacib olduğunu qeyd edib: "Mənim daha əvvəl də Rusiya rəsmiləri ilə müzakirələrim olub. Güzəşt mümkündür, biz siyasi həll üçün çalışırıq. NATO-Rusiya Şurası dialoq üçün vacib platformadır. Biz bu həftə ərzində keçiriləcək iclasda bütün məsələlərin həll olunacağını gözləmirik. Lakin inanırıq ki, dialoq prosesinin davam etdirilməsi və Avropada yeni bir müharibənin meydana çıxmaması üçün davamlı olaqədə olmağa razılaşa biləcəyik. Lakin eyni zamanda, biz digər senarilərə də, konfrantasiyaya da hazır olmalıyıq. Biz həmrəyik və hər hansı təcavüzə qarşı sərt siyasi, iqtisadi reaksiya verəcəyik".

İsmayıl Qocayev



# Siyasi risklər böyükdür

## Sanksiyalar rus rublunu dəyərdən tamamilə sala bilər

**Rusiya Prezidenti Vladimir Putin il sonu mətbuat konfransında suallara cavab verib. O bildirib ki, real iqtisadi sektorun yüksək faizlərdən narahat olmasından xəbərdardır. Bununla yanaşı, faizlərin endirilməsinin riskli olduğunu söyləyib.**

Putinin fikrincə, faizlər endirilərsə, Rusiya da Türkiyə kimi çətinliklərlə üzləşəcək. O həmçinin qeyd edib ki, ölkədə bu il 8 faiz olacağı proqnozlaşdırılan inflyasiya gələn il 4,5 faiz təşkil edəcək.

Qeyd edək ki, hazırda Rusiyada faiz dərəcəsi 8,5 olmaqla inflyasiya səviyyəsindən yüksəkdir. Amma Türkiyədə inflyasiya 22 faiz olduğu halda faiz dərəcəsi 15-dir. İqtisadi qaydalara görə, faiz dərəcəsi inflyasiya səviyyəsindən yüksək olmalıdır.

**Putinin mətbuat konfransında ötürmək istədiyi mesajlarla bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, şimal qonşumuza qarşı ciddi sanksiyaların tətbiq edilməsi rubla təsirini göstərə bilər:** "Türkiyə Mərkəzi Bankı faizi endirir, bu da məzənnədə ciddi dalğalanmalara səbəb olur. Rusiyada isə son 4 toplantının 3-də faiz dərəcəsinin pilləli artımının şahidi olduq. Putin işarə edirdi ki, mərkəzi bank faiz dərəcəsini artırmasaydı, rublda çox ciddi dalğalanmalar ola bilərdi. Rus rublunun məzənnəsinə təsir edən əsas amil neft-qaz qiymətləridir. Zənnimcə, neft-qaz qiymətləri kifayət qədər yüksək səviyyədə olduğuna görə, yaxın gələcəkdə rubl hər hansı bir ciddi dalğalarla qarşılaşmayacaq. Sadəcə, siyasi risklər çoxdur. Qərb ölkələri ilə Rusiya arasında çox ciddi gərginlik mövcuddur. Sanksiyalar, o cümlədən "swift" sistemdən Rusiyanın çıxarılması ilə bağlı bir qərar olarsa, o zaman rus rublu dəyərdən düşə bilər".

Xanlar ƏLİBƏY



# Heç bir şübhə yoxdur

## Ermənilər hər zaman iğtişaşlara fürsət kimi baxıblar

**Ermənistan hərbçiləri Qazaxıstandakı vəziyyətdən öz çirkin məqsədləri üçün istifadə edirlər. Bu fikirlər rusiyalı analitik Yevgeni Mixaylov tərəfindən dilə gətirilib.**

Mixaylov vurğulayıb ki, Uralsk şəhərində nəzarət-buraxılış məntəqəsində erməni nömrəli avtomobilin saxlanıldığını, sərnişinlərinin silahlı olduğu müəyyən olunub. Maşında gözyaşardıcı qaz və soyuq silahlar olub. Bundan başqa, yük yerindən yüzlərlə telefon, planşet, smart saat və xüsusi maqnit etiketləri olan paltar aşkar edilib. Saxlanılanların sözlərinə görə, onlar iğtişaş zamanı əşyalar, smartfonlar və digər avadanlıqlar oğurlayıblar. Bu, ilk növbədə, bəzi şəxslərin ölkədə hökm sürən xaosdan sui-istifadə edərək, quldurluqlarda iştirak etmək fikrinə düşdüyünü göstərir. Onlar hər yerdə, o cümlədən Rusiyada da fəaliyyətdə olan quldurlardır.

**Ermənilərin "hərbçi" adı altında Qazaxıstanda törətdikləri əməllər barədə "Şərq"ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, ermənilərin türk-müsəlman Qazaxıstanda "fəallığı" təəccübləndirici deyil.** Professorun sözlərinə görə, 1990-cı il 20 Yanvar hadisələrində Azərbaycanda dəhşətli qırğınlar törədən quldurların məhz ermənilərdən ibarət olduğu sirr deyil: "Bakıda vəhşilik edənlərin, xalqımızın qanını tökənlərin demək olar ki, hamısı Krasnodardan yığılmış ermənilər idi. Ermənilər hər zaman iğtişaşlara fürsət kimi baxıblar. İndi də gözlərini Qazaxıstana dikiblər. Şübhə yox ki, bu gün Qazaxıstanda baş verən hadisələrdə, oğurluq-quldurluq əməllərində, ətrafa ziyan vurulmasında ermənilər xüsusi "aktivlik" nümayiş etdiriblər. Tarix boyu türklərin yaşadıqları məkanlara nifrət bəsləyiblər, daim qısqanclıq və qisasçılıq təfəkkürü ilə yaşayıblar. İndi Qazaxıstanda baş verənlər də göstərir ki, ermənilər yenə öz amplualarındadır. Ermənilərin Qazaxıstanda da Rusiyanın bir nömrəli maşası rolunda can-başla çıxış edirlər".

> ***"Qazaxıstanda baş verən hadisələrdə, oğurluq-quldurluq əməllərində, ətrafa ziyan vurulmasında ermənilər xüsusi "aktivlik" nümayiş etdiriblər"***

İsmayıl Qocayev

# Ordunun döyüş hazırlığı möhkəmlənir

## Bu il daha çox komando təlimlərinə üstünlük veriləcək

**Müdafiə Nazirliyindən verilən məlumata əsasən, döyüş hazırlığı planı üzrə Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissəsində 2022-ci 10 yanvar tədris tarixində ilin ilk təlim-məşqləri keçirilib. Plana uyğun olaraq kəşfiyyat məlumatı əsasında şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyən edilib.**

Şəxsi heyət mümkün təxribatların qarşısını almaq məqsədilə daimi dislokasiya məntəqəsini tərk edərək əməliyyat rayonu istiqamətində irəliləyib. Komandolar tərəfindən şərti düşmənin təxribat-diversiya qrupunun mühasirəyə alınaraq zərərsizləşdirilməsi, tapşırıqların icrası zamanı saxlanılan şəxslərlə bağlı beynəlxalq humanitar hüquq norma və prinsipləri çərçivəsində tədbirlərin görülməsi üzrə fəaliyyətlər icra olunub. Şəxsi heyətin çətin iqlim şəraitində və kəskin relyefli ərazilərdə taktiki vərdişlərinin təkmilləşdirilməsi, həmçinin komando bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə keçirilən təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Xatırladaq ki,Quru Qoşunları Komandanlığı Azərbaycan Ordusunun müasir orduların modelinə uyğun yeni inkişaf mərhələsinə keçməsi üçün təşkilati-ştat strukturunun təkmilləşdirilməsi istiqamətində yaradılıb.



**Hərbi jurnalist, ehtiyatda olan zabit Üzeyir Cəfərov Komanda hərbi hissəsinin həyata keçirdiyi ilk təlimdən "Şərq"ə danışarkən bildirib ki, 2022-ci il üçün Quru Qoşunlarının planında daha çox təlimlər yer alıb:** "Komando tipli hissələrin qarşısında hələ xeyli vacib məsələlər var. Düşmən hələ də həm öz, həm də rus sülhməramlıların yerləşdiyi mövqeyi ərazilərdən bizim mövqelərə atəş açır və ya müəyyən işlərin görülməsinə mane olur. Mülki və hərbi yol infrastrukturunun çəkilməsi işlərində iştirak edən insanlara əngəllər yaradır. Bu nöqteyi-nəzərdən sözsüz ki, Komando tipli hərbi qulluqçularımızın döyüş hazırlıqlarını artırmaq üçün bundan sonra da xeyli təlimlər həyata keçiriləcək".

**Ü.Cəfərov nəzərdə tutulan digər hərbi təlimlərdən də söz açıb:** "Həm ölkə daxilində, həm də xaricdə Azərbaycan-Türkiyə Azərbaycan-Türkiyə-Gürcüstan Azərbaycan-Türkiyə-Pakistan təlimləri baş tutacaq. Sözsüz ki, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələrinin, eləcə də digər silahlı qüvvələrin də təlimlərinin olacağı gözlənilir. Amma bildiyim qədər bu il üçün daha çox Komando təlimlərinə üstünlük veriləcək".

Hərbi jurnalistə görə, bu təlimlər döyüş hazırlığını yüksəltməklə bərabər düşmənin ağlını başına yığması üçün verilən mesajdır və məhz hər hansısa forsmajor halla bağlı deyil: "Belə təlimlər 2022-ci il üçün təsdiq olunmuş plana əsasən həyata keçirilir. Yaxın aylarda onlar haqqında daha çox eşidəcəyik. Hesablamalarıma əsasən, təxmini bir ilin hər ayına üç təlim planlaşdırılır. Təlimlər şəxsi heyətin cəlb olunması ilə baş tutacaq və burda şəxsi heyətin sayı da müxtəlif - 5,10 və ya 15 min olacaq".

*Ekspert diqqətə çatdırıb ki, təlimlər nə qədər çox olsa, döyüş hazırlığı da bir o qədər yüksək səviyyədə olar:* "Allah Azərbaycan əsgərlərini qorusun. Onlar hazırda öz döyüş hazırlıqlarını yüksəltməklə məşğuldurlar".

Günəş Mərd

# "Geciksək, ciddi zərərlə üzləşə bilərik"

## Ehtiyatda olan general: "Türk dövlətləri dərhal ortaq ordu yaratmalıdır"



**Türk dövlətləri Qazaxıstan hadisələrinin öz ərazilərində təkrarlanmaması üçün dərhal birgə silahlı qüvvələr yaratmağa başlamalıdırlar.**

"Şərq" "Lenta.ru"ya istinadən xəbər verir ki, bunu keçmiş briqada generalı və Türkiyənin Azərbaycandakı keçmiş attaşesi Yucel Karauz "Telegram"da "Türkiyənin Səsi" portalına bildirib.

Bu sözlərlə ehtiyatda olan general Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Macarıstan və Türkmənistanın müşahidəçi ölkə kimi daxil olduğu Türk Dövlətləri Təşkilatına üz tutub: "Təşkilatın elə ilk iclasında birgə hərbi qüvvələrin yaradılması ilə bağlı hüquqi tədbirlər görülməli və real addımlar atılmalıdır. Geciksək, ciddi zərərlə üzləşə bilərik. İndi Qazaxıstanda baş verənlər digər qardaş respublikalarda da baş verə bilər".

Çimnaz Şahlar

# Cəbrayıl rayonunda yük qatarları hərəkət edir

## Tezliklə Zəngəzur dəhlizi də reallığa çevriləcək

**Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən 23 kilometrlik hissəsi istifadəyə verilib. Hazırda həmin hissə ilə yük qatarları hərəkət edir.**

Horadiz-Ağbənd dəmir yolu xətti Zəngəzur dəhlizinə inteqrasiya olunacağı üçün inşaat işlərinin sürətləndirilməsi Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında quru əlaqəsinin proqnozlaşdırılandan daha tez reallaşmasına səbəb ola bilər. İlkin gözləntilərə görə, dəmir yolunun tam istifadəsi gələn il mümkün olacaq. Bununla belə, işğaldan azad olunan ərazilərimizdə bərpa və yenidənqurma işləri sürətlə aparıldığı üçün sözügedən nəqliyyat xətti daha tez istifadəyə verilə bilər.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi regionda əməkdaşlıq üçün yeni imkanlar yaratması baxımından vacib olmaqla yanaşı bölgədə davamlı sülhün qorunub saxlanması aspektindən də mühümdür. Deputatın sözlərinə görə, regionun kifayət qədər iqtisadi potensialı var və bu da regional dəhlizlərin əhəmiyyətini daha da artırır:** "Daha geniş anlamda region ölkələrdən Türkiyə və Rusiya Böyük İyirmiliyə üzv olan ölkələrdir. Söhbət 3 tirlyon dollarlıq Ümumi Daxili Məhsulu olan region ölkələrinin Zəngəzur dəhlizindən istifadəsindən gedir. Digər tərəfdən, Zəngəzur dəhlizinin istifadəyə verilməsi eyni zamanda Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. İşlərin intensiv aparılması uzun müddət müzakirə olunan və region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizinin daha qısa zamanda reallığa çevrilməsinə gətirib çıxara bilər".



İsmayıl Qocayev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

İsmayıl Qocayev

# 5 ildən sonra bütün sahələrdə inkişafı müşahidə edəcəyik

Qarabağ regionunun məhsuldar torpaqları, suvarma imkanlarının geniş olması imkan verəcək ki, bölgə qısa zamanda Azərbaycan iqtisadiyyatına inteqrasiya oluna bilsin



**İşğaldan azad olunan ərazilərin təbii ehtiyatları, xüsusilə kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Artıq bu torpaqlarda kənd təsərrüfatının inkişafı ilə bağlı işlərə başlanılıb. Vaxtilə Qarabağda təsərrüfat sahibi olan sakinlər qayıtdıqdan sonra görəcəkləri işlərin planını qururlar. İşğaldan əvvəlki dövrdə Qarabağ ərazisi yüksək kənd təsərrüfatı göstəricilərinə malik idi.**

Ölkədə taxıl, pambıq, üzüm, ət və süd, yun və barama istehsalının çox hissəsi həmin ərazilərin payına düşürdü. İndi regionun aqrar sahədə əvvəlki şöhrətinə qaytarılması üçün hazırlıq işləri görülür. Məskunlaşma prosesi başlayandan sonra kənd təsərrüfatı ilə məşğul olacaq sakinlərin aqrar texnika, toxum, gübrə və digər lazımi vasitələrlə təmin edilməsinə dair planlar hazırlanıb. Bölgədə ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı üçün böyük potensial var. Ümumilikdə, işğaldan azad edilən ərazilərimiz hesabına növbəti illərdə əkin balansı xeyli artırılacaq. Sözügedən ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq işlərə başlanılıb. Kənd Təsərrüfatı Nazirliyi "Azərkosmos" ASC ilə birlikdə faktiki əkinaltı torpaqların da peyk təsvirləri əsasında xəritələşməsini aparıb. Ölkədə kənd təsərrüfatının inkişafına gəlincə, ötən il bu sahə üzrə 2 faiz artım olub. Fermerlərin kənd təsərrüfatı texnikasına tələbatını ödəmək məqsədilə 100-dən çox özəl şirkət vasitəsilə 3 min fermerə 7260 kənd təsərrüfatı texnikasının verilməsi, həmçinin, 8758 baş damazlıq heyvanın satışı maliyyələşdirilib. 2020-ci ildə 3400-dən çox fermerə mikrokreditlər verilib.

Digər bir məlumata görə, Ağdam rayonundakı əkin sahələri işğaldan azad edilən su mənbələri vasitəsilə suvarılacaq. Bunun üçün aidiyyəti qurumlar tərəfindən hazırlıq prosesi gedir. 44 günlük Vətən müharibəsinə kimi Ağdamın Azərbaycanın nəzarətində olan ərazilərində əkin sahələrinin suvarılması prosesi uzun vaxt aparırdı. Xaçınçay və Ağdamkənd su anbarları Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğundan suların qarşısı kəsilmişdi. 30 ildir fermer kimi fəaliyyət göstərən Yaşar Abbasov bildirib ki, işğal müddətində fermerlər öz əkin sahələrini subartezian quyuları vasitəsilə suvarıb: "Mənfur düşmən 30 ilə yaxın idi ki, torpaqlarımızı işğal altında saxladığından həmin ərazilərdə yerləşən su mənbələrimizdən bizə su gəlmirdi. Nə Xaçın çayı gəlmirdi, nədə ki, Qarqar çayı. Hamısının qabağını kəsmişdilər. Vəziyyətimiz elə də yaxşı deyildi. Hazırda bu problem aradan qaldırılır. Ali Baş Komandan İlham Əliyevin və Müzəffər Azərbaycan Ordusunun şücaəti sayəsində torpaqlarımızın işğaldan azad edilməsi və o ərazilərdə olan su mənbələrinin geri alınması artıq fermerlərin də işini asanlaşdırıb". Fermer Elşən Orucov da deyib ki, onun 70 hektara yaxın əkin sahəsi var və illərdir ki, əkinçiliklə məşğul olur: "Pambıq əkirik, taxıl əkirik, yonca əkirik. Düzdür, əvvəllər suvarma sularımızda bir az qıtlıq yaşanırdı. 44 günlük Vətən müharibəsi zamanı bizim Ağdam rayonu da işğaldan azad edildi və Ağdamda yerləşən böyük su anbarlarımız - Xaçınçay su anbarı, Ağdamkənd su anbarı düşmənin nəzarətindən çıxdı. İnşallah bu su anbarları tam istifadəyə veriləndən sonra biz fermerlərin əkin-biçin işləri hamısı asan olacaq. Çünki indiyə kimi əkin sahələrimizi subartezian quyularının hesabına suvarırdıq. Burda növbələr yaranırdı. Nəticədə su qıtlığı yaşanırdı".

Ekspertlər də qeyd ediblər ki, işğaldan azad edilən ərazilərdə olan su mənbələrindəki suyun tərkibinin meneral maddələrlə zəngin olması əkin prosesində yüksək məhsuldarlığın əldə olunmasına şərait yaradacaq. İşğaldan azad edilən ərazilərdən gələn sular, artezian suyundan çox keyfiyyətlidir. Artezian sularının tərkibində duzluluq olduğundan məhsuldarlığı aşağı salır. Ancaq təbii su mənbələrindən gələn suların tərkibi meneral maddələrlə zəngin olduğundan həm məhsul üçün, həm də torpaq üçün daha faydalıdır. Vurğulanıb ki, hazırda Ağdam Mexaniki Suvarma İdarəsi 35 min 400 hektar kənd təsərrüfatı bitkilərinin suvarılmasına və eləcə də 75 min nəfər əhalinin içməli və məişət suyuna xidmət edir. Hazırda idarənin balansında 986 subartezian quyusu, 4 nasos stansiya, 4 suyığıcı göl, 192 hidrotexniki qurğu və 365 kilometr suvarma kanalları mövcuddur. Həmin subartezian quyuları 120, 65, 40 kub həcmində su verən subartezian quyulardır. İllər öncə həmin subartezian quyularının məhsuldarlığı çox olub. Lakin torpaqlarımız işğal altına düşdüyündən, mənfur düşmənlərimiz torpaqlarımız kimi su mənbələrimizi də işğalda saxladığından sonralar ciddi problemlər üzə çıxıb. Hazırda idarənin balansında olan Xaçınçay su anbarının həcmi 23 milyon kubmetrdir. Həmin Xaçınçay su anbarı bir dəfəyə 8 min hektar sahəni suvarma gücünə malikdir. Bu da il ərzində 4 dəfə suvaranda 32 min hektar əkin sahəsinin suvarılmasını təşkil edir. Eyni zamanda Qarqar çayından qidalanan Ağdamkənd su anbarı var ki, onun da 4 milyon kubmetr həcmi var və 3 min hektar torpağın suvarılmasına xidmət edir. Bu su anbarlarının bərpa olunması üçün Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən tədbirlər planına uyğun olaraq, əsaslı işlər aparılır.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə deyib ki, SSRİ dövründə Qarabağda formalaşmış kənd təsərrüfatı müəssisələri fəaliyyət göstərirdi. Ekspertə görə, bölgə taxılçılıq, üzümçülük, heyvandarlıq, tütünçülük və demək olar ki, kənd təsərrüfatının bütün sahələri üzrə iqtisadi dövriyyəyə cəlb olunmuşdu:** "Sovet vaxtında Qarabağda qabaqcıl müəssisələr, sovxoz və kolxozlar çox idi. Ermənistan 30 illik işğal dövründə ərazilərimizdəki bütün infrastrukturu məhv edib, yararsız hala salıb. Lakin torpaqlarımız işğal altında deyil və aylardır Qarabağda sürətli quruculuq işləri həyata keçirilir. Hökumətin əlində Qarabağın iqtisadi, geoloji xəritəsi var. Bölgənin bütün xüsusiyyətləri, burada kənd təsərrüfatının hansı sahəsinin daha çox gəlir və fayda gətirəcəyi məlumdur. Qarabağda kənd təsərrüfatı sahəsində digər regionlarda tətbiq olunmuş, sınaqdan çıxmış innovativ resurslardan geniş istifadə olunacaq. Qarabağ regionunun məhsuldar torpaqları, suvarma imkanlarının geniş olması imkan verəcək ki, bölgə qısa zamanda Azərbaycan iqtisadiyyatına inteqrasiya oluna bilsin. Təxminən, 5 ildən sonra bölgədə qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafını müşahidə edəcəyik".

**F.İbrahimov vurğulayıb ki, sovet dövründə Qarabağda geoloji tədqiqat işləri aparılıb:** "Bölgədə kifayət qədər zəngin geoloji-mineral yataqlarımız mövcuddur. Bunlar tikinti sektorunda işimizə yarayacaq və inşaat materiallarının istehsalına ciddi təkan verəcək. Araz vadisi, Zəngilan, Cəbrayıl istiqamətində də təbii sərvətlərimiz çoxdur. Bölgədə mərmərləşmiş əhəng daşı, yanmayan xüsusi bioloji minerallar var. Bunlar zamanla iqtisadi dövriyyəyə cəlb olunacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Məktəbdə şiddət yolverilməzdir

## Psixoloqlar şagirdlərlə söhbətlər aparmalıdır



**Xəbər verdiyimiz kimi, Bakı şəhəri 17 nömrəli tam orta məktəbdə müəllimin şagirdlər tərəfindən döyülməsi barədə sosial şəbəkələrdə məlumat yayılıb. Məktəbdən isə bildirilib ki, yayılan məlumatlar əsassızdır: "Ümumiyyətlə, 17 nömrəli tam orta məktəbdə 21 yaşlı ingilis dili müəllimi işləmir.**

Məktəb və müəllim haqqında əsassız məlumatların yayılması təhsilə xüsusi önəm verən Azərbaycan cəmiyyətinin prinsiplərinə uyğun olmayan hallardandır".

Xatırladaq ki, ötən həftə də Bakı şəhəri 9 nömrəli tam orta məktəbin direktoru Z.Əhmədovanın şagirdlərə məktəbin foyesində şagirdlərə əl qaldırması müşahidə kameralarına düşüb. Onun bu hərəkəti sosial şəbəkədə qınağa səbəb olub. Hadisə ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən müvafiq araşdırma başladılıb.

**Təhsil eksperti Elçin Əfəndi məktəblərdə yaşanan bu cür xoşagəlməz hallardan "Şərq"ə danışarkən bildirib ki, təhsil müəssisələrində müəllimlər və şagirdlər arasında qarşılıqlı hörmət önəmlidir:** "Burada daha çox müəllimlərin üzərinə məsuliyyət düşür. Onlar pedaqoqdur. Hər bir məsələdə təmkinli davranıb, daha səbrli olmalıdırlar. Mən təəssüf edirəm ki, bəzi şagirdlər tərəfindən də etik davranış çərçivəsindən müəyyən kənara çıxma halları olur. Müəllimlərə qarşı hörmətsizlik, dərsi pozma və s. Bu hallar olsa belə şiddət tətbiq edilməməlidir".

Təhsil eksperti bu xüsusda məktəb psixoloqlarının roluna toxunub: "Biz şahidi oluruq ki, əksər məktəblərdə psixoloq çatışmazlığı var. Mən dəfələrlə təklif etmişəm, yenə də təklif edirəm ki, orta ümumtəhsil müəssisələrində həftədə bir saat da olsa psixologiya fənni tədris olunsun. Bu, bizim üçün önəmlidir. Ən azından belə olduqda gələcəkdə baş verəcək hansısa neqativ halların qarşısını ala bilərik".

**E.Əfəndi əvvəlki dövrlərdə təhsil ocaqlarında baş verən şiddət hallarına toxunub və deyib ki, o illərdə valideyn övladını məktəbə gətirəndə əti sənin, sümüyü mənim deyirdi:** "İndi o dövr deyil. Hər bir valideyn istəyir ki, övladı təhsil alsın, eyni zamanda, ona qarşı heç bir halda şiddət tətbiq edilməsin". Ekspertin qənaətincə, belə halların qarşısını almaq üçün məktəb psixoloqları tərəfindən müəllim və şagirdlərlə mütəmadi olaraq söhbətlər aparılmalı, eyni zamanda, valideynlərlə əlaqə qurulmalıdır. Bizsə cəmiyyət olaraq bu yöndə ictimai qınaqdan lazımınca istifadə etməliyik.

Günəş Mərd

# Sosioloq çıxış yolu göstərdi

## "Hər məhəllədə 4 nəfərdən ibarət sosial işçi qruplar olmalıdır"



**Sabunçu rayonunda 2 yaşlı M.Şıxalıyevin oğurlanması ilə bağlı Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 144-cü (Adam oğurluğu) maddəsi ilə Cinayət İşi başlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, hadisəni törətməkdə şübhəli bilinən Beyləqan rayon sakini Gültəkin Muradova təqsirləndirilən şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hadisə ilə bağlı Gültəkin Muradova ilə birlikdə qeyri-rəsmi nikahda olan Ağdam rayon sakini Şamil Əliyev, uşağın atası Elgün Nəsirov da istintaqa cəlb ediliblər. İstintaq hərəkətləri davam etdirilir.

2 yaşlı uşaq və ailənin digər övladları müvafiq dövlət qurumlarının qərarı ilə sənədləşmə aparılaraq sığınacağa yerləşdirilib.

Son zamanlar bu kimi hadisələrə tez-tez rast gəlirik. Bu olayların əsas səbəblərindən biri də məsuliyyətsiz valideynlər, sağlam təməllər üzərində qurulmayan ailələrdir.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən sosioloq Əhməd Qaşamoğlu bildirib ki, Azərbaycanda ailələrlə, ailə institutları ilə yetəri qədər və lazımi səviyyədə məşğul olunmur:**

"Biz ailə institutunu başlı-başına ötürmüşük. Ciddi məşğul olmaq üçün yanaşma dəyişməlidir. İndiki yanaşma düzgün deyil. İndi müasir ailələrə 40-50 il bundan əvvəlki metodlar ilə yanaşılır. Cəmiyyət günü-gündən mürəkkəbləşir, həssaslaşır. İndiki vaxtda ailələrin möhkəm olması üçün ailə institutuna tamamilə başqa yanaşma lazımdır. O yanaşma nədir?

Biz fikirləşməliyik ki, ailənin əsas funksiyaları nədir? Çalışmalıyıq ki, bu dəyişən, mürəkkəbləşən cəmiyyətdə hansı işləri görək ki, ailə öz funksiyasını yerinə yetirə bilsin. Ancaq biz o barədə düşünmürük, bacarmırıq. Elə ancaq deyirik ki, iş aparırıq. Nə iş aparırıq? İşin nəticəsi yoxdursa o işi aparmağın nə xeyri var?

Ona görə təcili olaraq ailələrlə iş aparmaq üçün xüsusi, elmi təminatlı fəaliyyət proqramı hazırlamaq lazımdır. Onda məlum olacaq ki, qanunverici orqan, jurnalistlər, elmi idarələr hansı işi görməlidir. Eyni zamanda ailələrdəki bu vəziyyətin qarşısını almaq üçün necə ki ölkədə, məhəllələrdə polis xidməti, polis müvəkkilləri var, hər məhəllə üzrə 3-4 nəfərdən ibarət sosial işçi qrupları da olmalıdır. Həmin sosial işçilər öz ərazisində olan ailələrdə baş verən proseslə-ri yaxından izləməlidir və məlumatlı olmalıdır. Orada qızlar da olacaq, oğlanlar da. Qadınlarla qadınlar söhbət edəcək, kişilərlə də oğlanlar. Ailənin bir problemi olanda sosial iş xidməti onlara kömək edəcək. Lazım gələndə sosial müdafiə ilə bağlı, qadın hüquqları ilə bağlı orqanlara və ya polisə deyəcək. İndiki cəmiyyət bunu tələb edir. Mən, neçə ilin sosioloqu, Azərbaycanda ömrünü bu işə həsr etmiş biri kimi, deyirəm ki, bu işin həll yolu budur. Ancaq eşidən yoxdur".

Sənan İsmayıl



**Çörək zavodunda işçi qadının faciəli ölümünü əks etdirən kadrlar bu günlərdə ən çox izlənən videodur. Hətta ictimai nəqliyyatda da sərnişinlər bundan danışır və bir-birinə "videonu görmüsən? Dəhşətdi " deyib smartfonu "işə salırlar" - yəni görməmisənsə, bax. İnsanların bu faciə "həvəsi"nə heyrətlənməmək olmur.**

# Hüquqşünas hadisəyə fərqli münasibət sərgilədi

## Qadının çörək sexində faciəvi ölümü ictimai əhəmiyyət daşıyan məsələdir

Deyəsən, insanlarımız şoudan bezib qandondurucu kadr "həveskarları"na çevrilirlər getdikcə. Birincisi, bu kadrların Tik-Tok, feysbuk kimi sosial şəbəkələrdə yayılmasının özü dəhşətdir. Bir insanın dəhşətli faciəsi əyləncəyə necə çevrilir? İkincisi, faciəli şəkildə vəfat etmiş insanın ailəsini, doğmalarını düşünəndə normal insanın qanı donur. Amma videonu maraq xatirinə, "mən də bunu gördüm", "qonşudan dala qalma" prinsipi ilə izləyənlər bunu necə bacarır? Bir neçə gündür ki, sosial şəbəkələrin müzakirə mövzusu həm də budur; bu cür kadrlar yayılmalıdırmı? Vəfat etmiş şəxsin görüntülərini paylaşmaq nə dərəcədə etikdir və humanistliyə uyğundurmu? Vəfat etmiş şəxsin ailəsi, doğmalarının hissləri ilə oynamaq insanlığa sığmayan hərəkətdir.

> **"Ələsgər Məmmədli: Hadisə ictimai rezonans doğurub deyə, onun yayılması və media tərəfindən işıqlandırılmasında hüquqi pozuntu yoxdur"**

Xatırladaq ki, hadisə yanvarın 7-si saat 16 radələrində paytaxtın Nərimanov rayonu, İ.Abışov küçəsində yerləşən "İsrafiloğlu" MMC-yə məxsus çörək zavodunda baş verib. Hadisə barədə Nərimanov Rayon Prokurorluğu məlumat yayıb. Bildirilir ki, çörək zavodunda fəhlə işləyən 1971-ci il təvəllüdlü Mətanət Həsənovanın iş yerində ölməsi barədə rayon prokurorlug?una məlumat daxil olub. Aparılan aras?dırmalarla mu?əyyən edilib ki, Mətanət Həsənova zavodun istehsalat sexində xəmir qarışdıran qurğunun alt hissəsini təmizləyərkən həmin qurğunun digər işçi tərəfindən ehtiyatsızlıqdan işə salınması nəticəsində qolu qarışdırıcının arasında qalıb və almış olduğu xəsarətlərdən hadisə yerində ölüb. Faktla bag?lı Nərimanov Rayon Prokurorlug?unda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mu?hafizəsi qaydalarının pozma, ehtiyatsızlıqdan insan o?lu?mu?nə səbəb olduqda) maddəsi ilə cinayət is?i bas?lanılıb.

Bəs bu görüntülər sosial şəbəkəyə haradan sızıb? Şübhəsiz, sexdə müşahidə kameraları var. Ola bilsin, məhz müşahidə kameralarındakı görüntü kimlərsə tərəfindən sosial şəbəkəyə ötürülüb. Yaxud da sexdə çalışanlar tərəfindən. Bütün hallarda bu kadrların yayılması acı təəssüf doğurur. Vəfat etmiş insanın ailəsi, doğmaları məlum kadrların yayılmasına görə məhkəmə iddiası qaldıra bilərmi?

**Hüquqşünas Ələsgər Məmmədli "Şərq"ə açıqlamasında qeyd etdi ki, görüntülər, ola bilsin, hüquq-mühafizə orqanları, ya da zavod rəhbərliyi tərəfindən yayılıb:**

- Bu artıq ictimai əhəmiyyət daşıyan məsələdir. Prokurorluqda istintaq başlayıbsa, bəlkə də kadrlar hüquq-mühafizə orqanları tərəfindən yayılıb. Yaxud da ictimaiyyətdən gələn reaksiyalar, eləcə də şəxsin ölümündə təqsirkar hesab edildiyi üçün zavod rəhbərliyi, sex işçiləri tərəfindən yayıla bilər ki, hadisənin bilərəkdən, yaxud qəsd niyyətilə deyil, sırf ehtiyatsızlıqdan baş verdiyini görüntülərlə təsdiq etsinlər. Yəni bu kadrların yayılması hüquqi bərəət üçün lazım ola bilər. Əlbəttə, bu hadisə və o kadrların yayılması vəfat etmiş şəxsin ailəsi üçün gərgin psixoloji durum keçirməsinə səbəb ola bilər. Təbii ki, ailə, doğmalar üçün bu, dəhşətdir. Amma hadisə ictimai rezonans doğurub deyə, onun yayılması və media tərəfindən də işıqlandırılmasında hüquqi pozuntu yoxdur. Sadəcə, qan görüntülərinin yayılması doğru deyil. Nəzərə alsaq ki, bu kadrları azyaşlılar da izləyə bilər, bu cür görüntülərin geniş yayılması məsləhət deyil.

Məlahət Rzayeva



## “6 saat qızdırmalı halda məclis idarə etmişəm"

Rəqqasə Fatimə izləyicisinə xəstəlik arzuladı

**Rəqqasə Fatimə Fətəliyevanın izləyicisinə verdiyi cavab diqqət çəkib.**

"Şərq"in məlumatına görə, rəqqasə "İnstagram"da açdığı canlı yayım zamanı ona "qocasınız" deyən izləyicisinə cavab verib.

F.Fətəliyeva üzünün şişməsindən danışıb:

"Xəstə-xəstə kim məclis apara bilər? Altı saat "kablok"da xəstə canımla, qızdırmalı halda məclis idarə etmişəm. Heç hiss olunur? "İnstagram"da paylaşmışam, baxın da. Görün, Fatimə xəstəyə oxşayır? Qarğış etmirəm, arzulayıram ki, yarım dəqiqə siz də xəstəlik keçirdəsiz, necə olarsız? Üzünüz şişməz, əyilər".

## “Fuadıma qardaş gəlir"

Aktrisa ikinci dəfə oğlan anası olacaq



**İkinci dəfə ana olmağa hazırlaşan aktrisa Ülviyyə Xəlilbəyova yeni paylaşım edib.**

"Şərq" xəbər verir ki, aktrisa dünyaya gələcək ikinci övladının cinsiyyətini açıqlayıb.

Ü.Xəlilbəyova növbəti dəfə oğlan övladı olacağını izləyiciləri ilə bölüşüb:

"Gələnin cinsi bəllidir. Fuadıma qardaş gəlir. Sağlam gəlsin". Ü.Xəlilbəyova həmkarı Murad İsmayılla ailəlidir. Cütlüyün Fuad adlı oğul övladı var.

## “Başına qoyduğu qızıl tacı öz cibindən düzəltdirmişdi”

Kamran Həsənli Manaf Ağayevi ifşa etdi



**Jurnalist, teleaparıcı Kamran Həsənli "Toylar kralı" verilişində baş verən bir sıra məqamlara toxunub. "Şərq"in məlumatına görə, "AStar" "Youtube" kanalının qonağı olan K.Həsənli müğənni Manaf Ağayevin qalibiyyətindən söz açıb:**

"1 milyon 600 min səslə Manaf qalib gəldi. Başına qoyduğu qızıl tacı öz cibindən düzəltdirmişdi. Üstünə brilliant qaşı da özü qoymuşdu. "ANS" ona "Swarovski" qaşlı mikrofon hədiyyə etmişdi. Manafın tacqoyma mərasimində ona oxumayacağını bildirdim.

O da, "niyə?" deyə sual verdi.

Söylədim ki, Qismət oxuyacaq, oxuyan odur. Manaf da bunu təsdiqlədi. Tacqoyma mərasimində hamı əyləşmişdi. Qismət tarixi şur təsnifini oxudu. Hamı, ən çox Manaf alqışlayırdı. "Toylar kralı"nda kral başqası olmasına baxmayaraq, özünün razılığı ilə Qismət oxudu. Bu adam 1 milyon 600 min dollar pul gətirib. Kişi kimi dedi ki, düz deyirsən, oxuyan odur".

## 3 milyon versələr...

Emil Bədəlov iş qurmaq istəyir



**"3 milyon versələr, sənətdən gedərəm".**

"Şərq" xəbər verir ki, bunu müğənni Emil Bədəlov söyləyib.

"Qısa Qapanma" verilişinin qonağı olan ifaçı vəsait aldığı təqdirdə iş quracağını bildirib.

Verilişin aparıcısı Elməddin Cəfərov müğənninin əvvəllər turizm şirkəti, restoran və gözəllik salonunun olduğunu qeyd edib.

**Hazırladı: Aygün Tahir**

# "Qazi dönər" adlı kafe utanc gətirdi

## Kamil Musavi: “İnsanlar belə ucuz piardan əl çəkməlidir”

**Vətəndaşların şəhid və qazilərə diqqəti hər cəhətdən özünü göstərir. İnsanlar onlara sevgi, hörmət və qayğı ilə yanaşır. Maddi və mənəvi dayaq olur.Təqdirəlayiq addımlar atılır. Ancaq son vaxtlar bəzi nüanslar cəmiyyətdə xoş qarşılanmır. Bu mövzu ilə bağlı sui-istifadə halları çoxalıb. İnsanların həssaslığından öz məqsədləri üçün yararlanırlar. Bu, xüsusilə də, biznes maraqlarında özünü büruzə verir. Belə məsələlərdən biri də "Qazi dönər" adlı kafenin fotosu olub. İnsanlar bu mövzuya mənfi münasibət sərgiləyib.**




Bəs "Qazi" adının belə məqsədlər üçün istifadəsi nə dərəcədə doğrudur? Biz bunu "hörmət", yoxsa "mənfəət" kimi görməliyik?

**Məsələyə münasibət bildirən Qarabağ qazisi Kamil Musavi "Şərq"ə söyləyib ki, bu cür adların məkanlara və ya yerlərə verilməsinin əleyhinədir:** "Bir insan tanınanda onunla bağlı hər şey diqqət mərkəzində olur. Qazilər isə xüsusi yer tutur. Lakin "Qazi" adından bu cür istifadə etmək yolverilməzdir. Qazi adı o səviyyəyə düşəcək ad deyil".

K.Musavi bu cür qazancların iziylə getmədiyini vurğulayıb: "Mənə müəyyən təkliflər olub. İcazə istəniləndə verməmişəm. Qazi adını qorumaq üçün belə şeyləri qəbul etməmişəm. Təəssüf, müşahidələrim olur. Məsələn, maşınların arxasına "qazi" yazılır, bəzi obyektlərə bu ad verilir və s. Heç vaxt bunları qəbul etməmişəm".

Qazi bu adın davranışlarımızla, əməllərimizlə, vətənpərvərliyimizlə ucala biləcəyindən bəhs edib: "Qazi adı daha yüksək mövqelərdə olmalıdır. Maşınıma əlil işarəsini belə vurmağa utanmışam. Kimsə kənardan fikirləşməsin ki, bu addan istifadə edirəm. Sıravi vətəndaşam. Düzdür, insanlar özləri yaxınlaşıb xoş rəftar göstərir. Amma müharibədə canımızı qoyduq deyə insanlara yuxarıdan-aşağı baxa bilmərik. Biz belə şeylərə görə utanıb çəkinirik. Amma insanlar bu ucuz "PR"dan əl çəkmir!".

**Cəmilə ƏZİM**

## “18 yaşımdan səhnədəyəm"

Cavanşir Məmmədov “Xalq artisti” fəxri adı istəyir



**"Nazirliklərdə rütbə, fəxri ad 3-5 il arasında verilir. Niyə mən 17 ildir ki, əməkdar artist statusunda qalıram? Peşman olublarsa, geri qaytarsınlar".**

*Bu sözləri "Şərq"ə açıqlamasında əməkdar artist, müğənni Cavanşir Məmmədov deyib.*

Müğənni fəxri adların verilməsi məsələsinə toxunub:

"Ulu öndərin təqdimatında səhnəyə gəlmişəm. Şəkillərim, sənədlərim var. Bəyənirlərsə, niyə ad vermirlər? Cənab nazirdən asılı deyil. O, təzə gəlib. Yəqin, xətrimi çox istəyir. Elə xalq artistləri var ki, Moskvadan o tərəfə keçməyiblər. Bu necə olur? 18 yaşımdan səhnədəyəm, xidmət etmişəm, öz haqqımı istəyirəm. Bəlkə səhnə mədəniyyətim zəifdir? 151 mahnı oxumuşam, 121-i bəstəkar mahnısıdır. Azərbaycan muğamlarını, bəstəkar və estrada musiqilərimizi barmağım kimi bilirəm. Həm xalq, həm də estrada musiqilərini bilən yeganə müğənniyəm".

**Aygün Tahir**

**Elan**

Zirvə liseyi ilə coğrafiya müəllimi Mahmudov Vüqar Mehman oğlu arasında bağlanmış əmək müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Çernobıl əlili Zeynalov Qürbət Məmməd oğluna Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Xocahəsən qəsəbəsində verilmiş mənzilə dair çıxarış itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Qarajın üzərində 3 mərtəbəli ev tikilib

## Şəhərin görünüşünə xələl gətirənlərə göz yumulur

**Azərbaycanda, xüsusilə paytaxt Bakıda binaların səliqəsiz, şəhərsalma qaydalarına zidd inşası uzun zamandır, müzakirə olunur. Amma əlac tapılmır ki, tapılmır. Səbəb məşhur mahnı -"Sənə yar, səndən yar şikayətim var"da deyildiyi kimi şikayət olunan və ona baxanın eyni qurum olmasıdır. Yəni bu sayaq tikililərə icazəni verən də, qanunsuz tikililərə nəzarət edən də eyni təşkilatdır.**



Bu günlərdə sosial şəbəkələrdə paylaşılan fotoda açıq-aydın görünür ki, kiçik sahəli bir avtomobil qarajının üzərində 3 mərtəbəli ev inşa olunub.

İctimaiyyət belə bir binanın tikintisinə kimlərin icazəsi olduğunu soruşulayıb və məsul şəxsləri günahkar hesab edib. Paytaxtda belə binaların tikilməsi həm estetik görüntünü pozur, həm də həmin ərazidə təhlükə riskini artırır.

**Vəziyyəti dəyərləndirən Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov "Şərq"ə bildirib ki, bütün tikililərin həyata keçirilməsi ilə bağlı qaydalar, razılaşmalar, sənədlərin təsdiq olunması "Mənzil məcəlləsi" və " Tikinti və Şəhərsalma məcəlləsi" əsasında aparılmalıdır:**

"Kimlərsə hansısa yollarla belə tikililərə şərait yaradırsa, onda yerli icra hakimiyyəti orqanları və mərkəzi icra hakimiyyəti orqanlarının yerli nümayəndələri buna müdaxilə etməlidirlər. Bu aydın məsələdir ki, Bakıda binalar səliqəsiz vəziyyətdədir. Biz həyətlərə baxdıqda eyvanların çıxarılmasını görürük. Binanın konstruksiyasını və tikinti normativlərini tamam pozublar. Bəzi yerlərdə binanın üz hissəsini yükləyiblər və binanı təhlükəli qəza vəziyyətinə salıblar. Bizdə, həmçinin seysmik dayanıqlılığını itirən binalar var. Bütün bunlar yerli icra hakimiyyəti orqanlarının gözü qarşısında, hərəkəti və hərəkətsizliyi nəticəsində baş verir. Təəssüf ki, bu proses davam edir".

**S.Məmmədov özəl torpaq sahələrində aparılan neqativ hallardan da danışıb:**

"Kiminsə özəl torpaq sahəsi varsa, orada tikinti apara bilər. Amma o tikintinin layihəsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır. Bu proses zamanı qəsdən bəzi icra hakimiyyəti orqanları elə prosedurlar müəyyən edir ki, neqativ hallar baş verir. Əslində layihə sənədləri təqdim olunmalıdır. Dərhal bununla bağlı rəy verilməlidir və tikinti işi başlanmalıdır. Amma hazırda bu sahədə bürokratik əngəllər baş verir və insanlar da qanunsuz yollardan istifadə edirlər. Bunun nəticəsində Bakının mərkəzində və ətraf kəndlərdə belə binalar ortaya çıxır".

**Çimnaz ŞAHLAR**

# Köhnə avtomobillərin çıxdaş edilməsi çətin olacaq

## Ancaq dövlət müəyyən güzəştlər tətbiq etməklə problemi həll edə bilər



**Ölkədə köhnə avtomobillərin istifadəsini məhdudlaşdıracaq təkliflər hazırlanır. Bu ilin iyun ayının 1-dək istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi köhnəlmiş nəqliyyat vasitələrinin idxalının və istifadəsinin məhdudlaşdırılması, ekoloji təmiz və təhlükəsizlik xüsusiyyətləri yüksək olan nəqliyyat vasitələrinin idxalının, ölkə ərazisində alqı-satqısının, habelə başqa formada dövriyyəsinin stimullaşdırılması məqsədilə aksiz dərəcələrinin mərhələli şəkildə adekvat olaraq dəyişdirilməsinə dair təkliflər hazırlanacaq.**

Qeyd olunan məsələ "Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviqi ilə bağlı qiymətləndirmələrin aparılması, təkliflərin hazırlanması və reallaşdırılması üzrə 2022-ci il üçün Yol Xəritəsi"ndə əks olunub.

Müvafiq təkliflərin hazırlanması Dövlət Gömrük Komitəsinə (DGK), İqtisadiyyat (o cümlədən Dövlət Vergi Xidmətinə, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə) və Maliyyə nazirliklərinə həvalə olunub.

Həmçinin cari ilin birinci rübünün sonunadək Azərbaycanda elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə onların, o cümlədən sürətli enerji doldurucu qurğu və avadanlıqların gömrük idxal rüsumlarına əlavə güzəştlərin tətbiqi imkanları qiymətləndiriləcək. Qiymətləndirməni üç dövlət qurumu (DGK, Maliyyə və İqtisadiyyat nazirlikləri) aparacaq.

Qeyd edək ki, DGK-nın sədri Səfər Mehdiyev ötən ilin sonunda ekoloji tələbləri nəzərə alaraq istehsalı 7 ildən çox olan avtomobillərin ölkəyə gətirilməsi zamanı onlara daha yüksək rüsumların tətbiq edilməsinin təklif olunduğunu qeyd edib.

**Köhnə avtomobillərin istismar fəaliyyətini dayandırması barədə "Şərq"ə danışan nəqliyyat eksperti, Azərbaycan Texniki Universitetinin Avtomobil daşımaları və yol hərəkətinin təşkili kafedrasının dosenti Fərhad Eyyubov bildirib ki, 2019-2023-cü illər üçün yol hərəkəti təhlükəsizliyi haqqında dövlət proqramı var:** "Həmin proqramın bütün hissələrində təhlükəsizliyin qarşısının alınması üçün müəyyən maddələr var. Onlardan da biri köhnəlmiş avtomobillərin istismardan çıxarılmasıdır. Bu məsələ neçə illərdir davam edir. Prosesin həlli üçün icra mexanizmi lazımdır. O da yoxdur. Bəzən köhnə maşınını antikvar əşya kimi saxlayan şəxslər də olur. Amma əksər avtomobilin resurslarının istifadəsi başa çatıb. Köhnə avtomobillərin nəqliyyat şəbəkəsində işləməsi birmənalı olaraq təhlükə yaradır".

**Ekspert diqqətə çatdırıb ki, hazırda ölkəmizdə nəqliyyat vasitələrinin alınması müəyyən standartlara uyğun olaraq nəzərdə tutulub:**

"Avro 4 və 5" standartlar yalnız nəqliyyat vasitəsinə çıxan zərərli qazlarla ölçülmür. Onların konstruktiv elementləri var. Həmin o elementlərin özü də normaya müvafiq olmalıdır. Ölkəyə gələn maşınlar bu nöqteyi-nəzərdən nizamlanır. İstismarda olan, amma köhnə standartlara cavab verən maşınların çıxdaş olması lazımdır. Bu işləri sürətləndirmək üçün dövlət müəyyən güzəştlər tətbiq edə bilər. Məsələn, güzəştli vərəqələr təqdim edə bilərlər. Bununla da şəxslər başqa nəqliyyat vasitəsini alanda vərəqələr vasitəsilə güzəşt əldə edərlər. Səslənən təkliflərin icra mexanizmi çox çətindir. Burada əsas iki şərt gözlənilməlidir. Birincisi, sosial məsələlərə görə xalqda narazılıq yaranmamalıdır. İkincisi isə təhlükəsizliyi mütləq təmin etmək lazımdır. Məsələn, elə insan var ki, 1000-1500 AZN-ə maşın alır, on illərlə işlətmək istəyir. Lakin bu, təhlükəsizliyə xidmət etmir. Bəzi ölkələrdə nəqliyyat vasitələrinin 5 ildən artıq istismarına icazə verilmir. Deməli, elə yüksək səviyyəli ölkələr var. Təkliflərin reallaşması üçün icra mexanizmi hazır olmalıdır".

**Sücayət Mehti**


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 91



## Terim "Qalatasaray"dan ayrıldı

Acun İlıcalı "İmperator"u təcili görüşə çağırdı

**Fatih Terim "Qalatasaray"la yollarını ayırar - ayırmaz "TV8"in sahibi, məşhur aparıcı Acun Ilıcalı dövrəyə daxil olub.**

Türkiyə mediası xəbər verir ki, Acun Ilıcalı Fatih Terimə xəbər göndərərək onunla özəl məsələ barədə görüşmək istədiyini deyib. Təklif nədən ibarətdir, detallar bəlli deyil. Mülahizələrsə var. Məlumdur ki, Acun İngiltərə futbol klubu "Hull City"ni alıb. "TV8"lə yanaşı, həm də "Exxen" platfomasına da sahiblik edən Acun Ilıcalının Fatih Terimə ya futbol komandasına məşqçisi kimi dəvət etmək, ya da Avropa Kuboku oyunlarını yayımlayan "Exxen" platfomasında şərhçi olmağı təklif edəcəyi danışılır. Acun özü isə görüşün mahiyyəti barədə danışmayıb. Nəticə bəlli olmadan açıqlama vermək istəmir. "Ajansspor" yazır ki, yaxın günlərdə Acun-Fatih Terim görüşünün hansı əməkdaşlığa gətirib çıxaracağı bəlli olacaq.

**Məlahət**

## Su üzərində villa da oldu

Su və enerji təchizatı sistemləri tam avtonom rejimdə işləyəcək



**Beynəlxalq "BMT Asia Pacific" şirkəti isti sahillərdə sakit sular üçün nəzərdə tutulmuş lüks üzən villa üçün yeni konsept hazırlayıb.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, layihə "SeaScape" (Dəniz mənzərəsi) adlandırılıb. Onun əsas xüsusiyyətlərindən biri sualtı yataq otağıdır ki, bu da istirahət edənlərə sualtı mənzərələrdən həzz almağa və dəniz balıqları arasında yatmağa imkan verəcək.

Bundan əlavə, evin sahəsi əlavə edilə bilən ponton modulları ilə 167 kvadratmetrə qədər genişləndirilə bilər.

Villanın su və enerji təchizatı sistemləri tam avtonom rejimdə işləyəcək.

## Yolunu kəsib, atəş açdı

Keçmiş nişanlısını küçənin ortasında güllələdi



**Türkiyənin Mersin bölgəsində Barış Can Uçuk keçmiş nişanlısı Raziye Oskayı küçənin ortasında tapançadan atəş açaraq öldürüb.**

**"Şərq" Türk mediasına istinadən xəbər verir ki, hadisə səhər saatlarında Toroslar mahalı, Hüseyn Okan Merzeci məhəlləsində baş verib.**

**24 yaşlı Barış Can Uçuk işə getmək üçün evdən çıxan keçmiş nişanlısı 25 yaşlı Raziye Oskayın yolunu kəsib. Silahını çəkən B.C.Uçuk bir-birinin ardınca Raziye Oskaya atəş açıb. Güllələrə tuş gələn Oskay qanlar içində yerə yıxılıb. Ətrafdakıların xəbəri üzərinə bölgəyə göndərilən təcili yardımla Raziye Oskay Mersin Universiteti Tibb Fakültəsinə aparılıb. Müalicə altına alınan Oskayın, həkimlərin bütün səylərinə baxmayaraq həyatını xilas etmək mümkün olmayıb. Hadisədən sonra nəzarətə alınan Barış Can Uçuk ifadəsi alınmaq üçün polis bölməsinə aparılıb.**

**Aygün Tahir**

## Yaxşı ki, donmadı

Qarın içində qutuda körpə tapıldı



**8 yanvar axşamçağı Novosibirsdə yoldan keçən yeniyetmələr yol kənarında qarın içində atılmış körpə tapıblar.**

**Medicina.az xəbər verir ki, qutuya qoyulmuş körpənin yanında butulda uşaq südü də var idi. 3 aylıq qız köpəni dərhal həkimə çatdırıb, polis çağırıblar. Hazırda polis körpənin valideylərini axtarmaqla məşğuldur. Həkimlər bildirib ki, uşaq bir neçə saatdır küçəyə qoyulduğundan və tez tapıldığından donmayıb.**

## Britaniyalı həkimlər açıqlayıb

Barmaqlarda yaranmış simptom ağciyərdə xərçəngdən ola bilər



**Ağciyərlərdə olan bəd xəstəliyi barmaqlardakı dəyişikliklərdən anlamaq olar.**

**Medicina.az xəbər verir ki, britaniyalı həkimlər açıqlayıb.**

**Böyük Britaniyanın Milli sağlamlıq Xidmətinin əməkdaşları bu qeyri-adi xarici əlaməti tapıblar.**

**Ağciyər xərçəngində əl barmaqlarının ucu çox nazikləşir və barabar çubuqlarına bənzəyir. Eləcə də dırnaqların deformasiyası başlayır, onlar qabarır və əyilir.**

**Bu dəyişikliklər ağciyər xərçəngi aşkarlanmış xəstələrin 35-40%-də olub.**

**Bu xəstəliyin digər əsas əlamətləri öskürək, kürəkdə ağrı, səsin dəyişməsidir.**



# Pandemiyanın axarını dəyişəcək

15 dəqiqəyə nəticə bəlli olur



**Məlahət Rzayeva**

**İngiltərənin istehsal etdiyi antigen testi pandemiyanın axarını müsbətə dəyişmək gücündədir. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Böyük Britaniya hökuməti kütləvi istifadə üçün nəzərdə tutulan testlərin istehsalı üçün 4,7 milyard sterlinq büdcə ayırıb.**

Testlərin pandemiyadan sonra da istifadədə saxlanması düşünülür. B.Britaniya hökuməti testlərin istehsalına "Moonshot əməliyyatı" adı verib. Plana əsasən antigen testlərdən sürətlə və kütləvi şəkildə istifadə ediləcək. Laboratoriyada yoxlanılması gərəkən və zaman tələb olunan PSR testləri əvəzinə məhz bu plan sayəsində 15 dəqiqədə nəticələri bəlli olan, dəfələrlə ucuz başa gələn, birdəfəlik istifadə üçün nəzərdə tutulmuş antigen testləri pandemiyada müsbət dəyişikliyə nail olunacaq. Lakin belə məsələlərdə adətən mübahisələr də yaranır. B.Britaniyada da testlərə etibarsızlıq nümayiş etdirildi. Alimlərin bir qismi iddia edirdi ki, sürətli testlər xüsusən, orta məktəblərdə daha çox istifadə edilir deyə, yanlış cavablara söykənilərək şagirdlər evə göndərilir və bu da tədrisi axsadır. Hətta testlərdən imtina edilməsi də müzakirə edildi. Ancaq alınan nəticələr sürətli testlərə inamı möhkəmləndirdi. Mart ayından etibarən aparılan yeni antigen testlərinin cavabları ardınca PSR testindən də keçirildi. Məlum oldu ki, cavablar 89 faiz üst-üstə düşür. Artıq Britaniyada birdəfəlik antigen testləri gündəlik həyatın br

### *İngiltərə antigen testi üçün 4,7 milyard xərcləyib*

parçasına çevrilib. Əvvəlcə tibb müəssisələrində, iş yerlərində və idman sektorunda istifadə edilən testlər 2021-ci ilin aprel ayından etibarən kütləvi istifadəyə buraxılıb. İçərisində 7 test çubuğu olan qutular evlərə - vətəndaşlara pulsuz paylanır. Apteklərdə də bu testlər açıq satışdadır. Bir məsələ var ki, test cavabı neqativ çıxdıqda insanlar buna tam yəqinliklə inanır və həkimə müraciət etməyə ehtiyac görmürlər. Bu da xəstəlikdə ağırlaşmalara gətirib çıxara bilər. Liverpulda aparılan bir tədqiqat zamanı bəlli olub ki, birdəfəlik antigen testləri eyni gündə PSR testi pozitiv çıxmış, simptomsuz xəstələrin yalnız yarısını düzgün təsbit edib. Lakin PSR testlərinin infeksiya dönəmindən sonra da orqanizmdə qalan virusdan




genetik materialları daşıdığı da məlumdur. Yəni, PSR testləri xəstələnib - yoluxub sağalmış insanlarda hələ də pozitiv cavab göstərə bilir. Bu da çaşdırıcıdır. Birdəfəlik sürəti testlər yeni ştam - "Omicron"a qarşı da keçərlidirmi, buna hələ dəqiq cavab verilməyib. Alimlər bu fikirdədir ki, hətta test cavabları neqativ çıxsa belə, bu, COVİD-19 virusu təhlükəsinin tamamilə ortadan qalxdığını söyləmək üçün çox tezdir. Qoruma qaydalarına mütləq şəkildə davam edilməlidir.



# Səhiyyə qurumları xalqa müraciət edib

Virusun yeni və sürətlə yayılan təhlükəli variantlarından qorunmağın ən effektiv yolu vaksinasiyadır




**Azərbaycanda koronavirusun "Omikron" ştamı aşkarlanıb.**

Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.

Qeyd olunub ki, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir: "Koronavirusun mutasiyaları nəticəsində son zamanlar meydana çıxan yeni "Omikron" variantı bütün dünyada olduğu kimi, Azərbaycanda da ciddi narahatlıq doğurur. Ölkədə epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün görülən tədbirlər çərçivəsində virusunun genetik variantlarına dair mütəmadi analizlər aparılır".

Birgə məlumatda bildirilib ki, aparılan araşdırmaların növbəti mərhələsində ölkə xaricindən gələn şəxslərdən götürülən nümunələrdən 12-də SARS-CoV-2 21K "Omikron" variantı aşkarlanıb: "Aparılan tədqiqatların nəticələri bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli variantlarından qorunmağın ən effektiv yolu vaksinasiyadır. Əhalinin vaksinasiyada aktiv iştirakı nəticəsində Azərbaycanda epidemioloji vəziyyətin sabit qalmasına nail olunub. Səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştamdan qorunmaq üçün İkinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq, bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmaq üçün gücləndirici (buster) doza ilə peyvəndləməyə çağırır. Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına da riayət olunmalıdır. Fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi qaydalar, virusun variantından asılı olmayaraq, xəstəlikdən qorunmağın və normal həyata qayıtmağın yeganə yoludur".

## Manqalı dronla alovlandırdılar

Qardaşlar o anı videoya çəkərək sosial mediada paylaşıblar




**Türkiyənin Elazığ bölgəsində 2 qardaş manqalı dronla alovlandırıb.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Sərhat və Fərhat Yol qardaşları tətil üçün Elazığın Bingöl əyalətindəki Bingöl Hesarek Kayak Mərkəzinə gedib. Xizək sürən qardaşlar qarlı havada manqal kefi çıxarmaq da istəyib. Amma manqalı alovlandırmaq üçün yelpikləri olmadığını fərq ediblər. Qardaşlar bunun çarəsini tapıb. Ətrafdakı mənzərələri çəkmək üçün özləri ilə götürdükləri dronu işə salıblar. Dron manqalın üzəri ilə hərəkət etdikcə pərlərin havası manqalı alovlandırmağa başlayıb. Dronun manqalı alovlandırdığı anları videoya çəkərək sosial mediada paylaşıblar. Video qısa müddətdə minlərlə bəyənmə toplayıb.

**Məlahət**

## Ayaq ağırısı ilə xəstəxanaya getdi

6 ay ömrü qaldığını öyrəndi





**Böyük Britaniyada Cimme Denham adlı qadın qeyri-adi hadisə ilə qarşılaşıb.**

Milli.Az xarici mediyaya istinadən xəbər verir ki, 29 yaşlı qadın ayaq ağrısı ilə getdiyi xəstəxanada ömrünün sonuna 6 ay vaxt qaldığını öyrənib. Bir müddət əvvəl bel ağrısı ilə həkimə müraciət edən Denham xərçəng olduğunu öyrənir. Daha sonra müalicə olunaraq sağalır.

Yenidən ayaq ağrısı ilə həkimə gedən qadın bu dəfə 6 ay ömrü qaldığını öyrənib. İki uşağı olan ananın bu xəbəri bir sıra xarici kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yayılıb. Üzücü xəbər hər kəsi dərin kədərə boğub. O, indi övladları ilə daha çox vaxt keçirməyə çalışır.